# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 62 (3386) Şənbə / 19-21 iyun 2021-ci il Qiymәti 40 qәpik


# Ermənistanda seçkilər

***44** günlük Vətən müharibəsində ağır məğlubiyyətə uğrayan Ermənistanda iyunun 20-də növbədənkənar parlament seçkiləri keçiriləcək. Gözlənildiyi kimi, seçkiöncəsi təbliğat prosesi siyasi qüvvələrin bir-birlərinə qarşı ən ağır təhqirlər işlətməsi, ittihamlar irəli sürməsi fonunda keçdi, lakin proseslər hələ bitməyib.*

***E**kspertlər seçkilərdən sonra Ermənistanı daha ağır günlərin gözlədiyini, siyasi çaxnaşmaların, hətta vətəndaş müharibəsinin yaşana biləcəyini ehtimal edirlər. Siyasi iştirakçıların bəyanatları da postseçki dövründə ciddi qarşıdurmaların yaşanacağından xəbər verir.*

***M**əsələn, Ermənistanın ilk prezidenti, Erməni Milli Konqres Partiyasının rəhbəri Levon Ter-Petrosyan jurnalistlərə açıqlamasında bildirib ki, seçkilərdən sonra Ermənistanda qarşıdurmaların olacağı istisna deyil. Ayılmaq üçün vaxt gəldi, əks təqdirdə, seçkilər nəticəsində Ermənistanı da itirə bilərik. Onun sözlərinə görə, seçkilərdəki qarşıdurma fiziki qarşıdurmaya çevrilmirsə, yaxşıdır, ancaq hər iki tərəf nəsə edəcək. Mitinqlərə start verilib, niyyətləri aydındır.*



**İyunun 21-i İrəvanda yeni xaosun başlanğıcı olacaq**



Ter-Petrosyan ölkənin bu yolu tutacağı təqdirdə bir ildə ikinci məğlubiyyət olacağını vurğulayıb: ”Bu seçkilərdə hansı qüvvələrin iştirak etdiyini, nə demək istədiklərini görürük. Bir-birlərinə qarşı müharibə elan ediblər. Hər hansı bir oyunun olacağı gözlənilir. Ayılmaq üçün vaxt gəldi, əks təqdirdə, Qarabağı müharibə nəticəsində itirmiş olsaq da, seçkilər nəticəsində Ermənistanı itirə bilərik. Şişirtmirəm, vətəndaş toqquşmaları belə olacaq”.

Ölkədə hansı siyasi qüvvələrin daha çox səs toplayacağı da maraqla gözlənilir. Ermənistanda səsverməyə 2 gün qalmış (təbliğat kampaniyasının dünən bitdiyi nəzərə alınarsa əslində, 1 gün qalmış) “GALLUP” beynəlxalq assosiasiyasının erməni ofisi seçkilərin qalibini elan edib. Ofisin rəhbəri Aram Navasardyan iyunun 18-də Yerevanda keçirdiyi mətbuat konfransında son rəy sorğularının nəticələrini açıqlayaraq bildirib ki, seçicilərin 28.7 faizi Robert Köçəryanın başçılıq etdiyi “Ermənistan” blokuna səs verəcək. Nikol Paşinyanın “Vətəndaş müqaviləsi” partiyasına isə 25.2 faiz seçici səs verməyə hazırdır. Keçmiş milli təhlükəsizlik naziri Artur Vanetsyanın ”Vətən” partiyası ilə digər keçmiş prezident Serj Sərkisyanın Respublika partiyasının alyansı (alyansa Vanetsyan başçılıq edir) 10.8 faiz səslə üçüncü yerə iddia edə bilər.

Hərçənd bu rəy sorğusunun nə dərəcədə obyektiv olduğu məlum deyil, bəzi məlumatlara görə, Navasardyan Köçəryana bağlı adamdır. Bununla belə Paşinyanın reytinqinin seçki kampaniyası dövründə kəskin azaldığı, Köçəryanın reytinqinin isə artdığı şübhə doğurmur.

“Sorğunun nəticələrinə əsasən “çiçəklənən Ermənistan” partiyasına (Qagik Tsarukyan) 5.4 faiz, “işıqlı Ermənistan” (Edmon Marukyan) partiyasına 5.2 faiz seçici səs verməyə hazırdır”, - Navasardyan bildirib. Onun açıqladığı nəticələrə əsasən bütün digər siyasi qüvvələr və bloklar 5 faizlik baryeri keçə bilməyəcəklər. O cümlədən Levon Ter-Petrosyanın “erməni milli konqresi” cəmi 1.5 faiz səs toplaya bilər.

“GALLUP” son reytinqləri açıqladığı bir vaxtda Rusiyada yaşayan erməni milyarder - oliqarx Samvel Karapetyan (“Taşir”) qrupu da Robert Köçəryana dəstəyini açıqlayıb. O cümlədən Paşinyanın həmyerlisi, keçmiş Baş Qərargah rəisi Onik Qasparyan bütün hərbçiləri Robert Köçəryana səs verməyə çağırıb. Qasparyan seçkilərə 2 gün qalmış yaydığı müraciətində Paşinyanın hakimiyyəti “manyakcasına, istənilən yolla idarəçiliyi əldə saxlamaq cəhdlərində” günahlandırıb. Onun sözlərinə görə, müharibə zamanı baş nazir vəzifəsini yerinə yetirən adam və onun komandası indi özlərini günahsız mələk kimi qələmə verərək istənilən situasiyada günahkarlar axtarırlar. Qasparyana görə, məsuliyyətdən yayınan adam dövlət üçün təhlükədir və bu seçkilərdə hərbçilər Robert Köçəryana, onun “peşəkarlardan” ibarət komandasına səs verməlidir.

Seçkiqabağı təbliğat zamanı istər Koçaryan, istərsə də Paşinyan və digərləri Dağlıq Qarabağ, Azərbaycanla sərhədlərin demilitasiyası, kommunikasiya əlaqələrinin bərpası, Zəngəzur dəhlizi, hətta Şuşa və Hadrutun geri alına biləcəyinə dair fantastik bəyanatlar səsləndirdilər, vədlər verdilər. Bəs görəsən, bu vədləri reallaşdırmaq nə dərəcədə mümkündür.

“ *Seçkilərdə namizədlərin hansı vəd verməsinə baxmayaraq, real siyasət tam fərqli ola bilər*



**Tofiq Zülfüqarov,**
sabiq xarici işlər naziri

■ **Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov Ermənistanda seçki ərəfəsində siyasi qüvvələrin revanşist vədlərini şərh edərkən deyib ki, seçkiqabağı siyasətçilərin müxtəlif vədlər verməsi normal bir şeydir. İndiki mərhələdə nə Paşinyanın verdiyi vədi ciddiyə almaq lazımdır, nə də Köçəryanın:** “Ermənistanda parlament seçkilərinə iki gün qalıb. Hazırda rəqiblər arasında amansız mübarizə gedir. Vaxt azaldıqca namizədlərin vədlərini çoxaldacağı gözlənilən idi. Düşünürəm, bu kimi ifadələrə çox da fikir vermək lazım deyil. Seçkilərdə Paşinyan qələbə qazansa da, çox güman ki, real siyasəti bundan öncəkindən fərqli olmayacaq. Diqqət etsəniz, Paşinyan hakimiyyətə gələrkən də ümidverici vədlər verirdi. Yəni Azərbaycanda da münaqişənin dinc yolla həll ediləcəyinə ümid vardı. Nəticədə isə biz tam fərqli bir mənzərənin şahidi olduq. Yəni seçkilərdə namizədlərin hansı vəd verməsinə baxmayaraq, real siyasət tam fərqli ola bilər”.

Politoloq qeyd edir ki, erməni siyasətçilərin vədlərinə deyil, ölkənin hazırkı vəziyyətinə baxmaq lazımdır: “Yəni bu gün Ermənistan ordusu dağılıb, daxili siyasət sabit deyil, iqtisadiyyat bərbad vəziyyətdədir. Belə bir ölkənin rəhbərinin hər hansı iddialı bəyanatına fikir verməyə ehtiyac yoxdur”.

✍ ***Azad Əliyev***

## MÜSAHİB

# Şuşa Bəyannaməsi müstəqilliyimizi əbədiləşdirdi...



**Cümşüd Nuriyev,**
siyasi elmlər doktoru, politoloq

***T**anınmış politoloq, siyasi elmlər doktoru Cümşüd Nuriyev hafta.az-a növbəti müsahibəsində Şuşa Bəyannaməsinin gələcəyə yönlənmiş tezisləri barədə diqqətəlayiq fikirlər ifadə edib. Ermənistanda bazar günü - iyunun 20-də keçiriləcək erkən parlament seçkiləri haqqında proqnozlarını səsləndirib.*

*Bu sənədlə Turan dövlətinin hüquqi-siyasi bazası da yaradıldı...*

►► Səh. 2

## MÜSAHİB



**Həvva Məmmədova,**
Xankəndinin keçmiş deputatı

“

■ Bu, tək xankəndlilərin yox, bütün azərbaycanlıların, Türk dünyasının ürəyindən verilən bir mesaj oldu...

■ İmzalanmış Bəyannamədən sonra ermənilər papaqlarını qarşılarına qoyub bir daha düşünəcəklər...

■ Ermənistanı rahat buraxa bilmərik, Azərbaycanda törətdiklərinə görə cavab verməlidir...

►► Səh. 3

## GÜNÜN FOTOSU...



**İranda Prezident seçkiləri...**

## GÜNÜN SİTATI

“ *30 ilə yaxındır öz torpaqlarından didərgin düşmüş məcburi köçkünlərin geri qayıtması ölkəmiz qarşısında duran əsas prioritetdir* ”



**Ceyhun Bayramov,**
Azərbaycanın xarici işlər naziri

## KARİKATURA



**Azərbaycan - Türkiyə qardaşlığı...**

“

# Misirdəki diaspor təmsilçimizin uğuru

**Seymur Nəsirov,**
Misirdə Azərbaycan Diaspor Təşkilatları Birliyinin sədri

Misir tolerant ölkədir. Burada hansı islami konfrans keçirilirsə, xristianlar da məmnuniyyətlə iştirak edirlər. ►► Səh. 6

## STATİSTİKA



■ **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 2021-ci ilin yanvar-may ayları ərzində 15 minə yaxın şəxsə əlillik təyin edilib.**

Onlardan 4700 nəfəri ilkin, qalanları isə təkrar əlillik təyinatı aparılanlar, habelə sağlamlıq imkanları məhdudluq təyin olunanlardır. Əlilliyin qiymətləndirilməsi vətəndaş-məmur (ekspert) təması olmadan, elektron infrastruktur (“Əlillik” altsistemi) üzərindən, səhiyyə müəssisəsinin e-sistemə daxil etdiyi göndərişlərdəki məlumatlar əsasında həyata keçirilir.



►► Səh. 5

# Aran Qarabağın su problemi

PREZİDENTİN İŞ GÜNÜ

## Prezident “Intercontinental” otelinin açılışında iştirak edib



***İyunun 18-də Bakıda beşulduzlu “Intercontinental” otelinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.***

Əvvəllər bu ərazidə “Cənub” mehmanxanası yerləşirdi. İndi onun yerində gözoxşayan memarlıq üslubunda yeddimərtəbəli “Intercontinental” oteli inşa olunub. Bu gün dünyada pandemiyanın davam etməsinə, iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə mühüm sosial-iqtisadi infrastruktur layihələrinin icrası uğurla davam edir. Müasir səviyyədə inşa olunan “Intercontinental” otelinin istifadəyə verilməsi bunun daha bir təzahürüdür.

“Intercontinental” otelində ümumilikdə, müxtəlif kateqoriyalara aid 126 otaq var. Otaqların hər birində qonaqların özlərini maksimum rahat hiss etməsi üçün bütün zəruri şərait yaradılıb. Oteldə turistlərin və paytaxt sakinlərinin xidmətində olacaq restoranlar, konfrans zalları və digər infrastruktur mövcuddur. Burada “Lamborghini Bakı Mərkəzi”nin satış salonu da yaradılıb. Salonda müştərilərə yüksək xidmət göstərmək üçün geniş imkanlar var.

## Kəmaləddin Heydərov Türkiyə səfiri ilə görüşüb



**İyunun 18-də Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov Türkiyə Respublikasının Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı ilə görüşüb.**

Hafta.az-ın Fövqəladə Hallar Nazirliyinin (FHN) saytına istinadən verdiyi xəbərə görə, nazir Kəmaləddin Heydərov səfir Cahit Bağçını səmimi salamlayaraq, ona Azərbaycandakı diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Nazir fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində iki qardaş ölkənin uyğun qurumları arasında qarşılıqlı əlaqələrin daim genişləndiyini bildirib. Ölkələrimiz arasındakı qardaşlıq və dostluq əlaqələrindən bəhs edən nazir Kəmaləddin Heydərov cari ilin iyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan arasında imzalanmış “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi”nin əhəmiyyətindən danışıb.

Səfir Cahit Bağçı səmimi görüşə görə təşəkkürünü bildirərək, Azərbaycandakı diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasındakı qardaşlıq və qarşılıqlı dostluq münasibətləri çərçivəsində Azərbaycanın Fövqəladə Hallar Nazirliyi ilə Türkiyənin uyğun dövlət qurumları arasında mövcud sıx əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), “Həftə içi”nin kompüter mərkəzində yığılır,
səhifələnir və “CBS” mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
“Həftə içi” nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Şuşa Bəyannaməsi müstəqilliyimizi əbədiləşdirdi...

Gündəm



**Cümşüd Nuriyev,**
siyasi elmlər doktoru, politoloq

***Tanınmış politoloq, siyasi elmlər doktoru Cümşüd Nuriyev hafta.az-a növbəti müsahibəsində Şuşa Bəyannaməsinin gələcəyə yönlənmiş tezisləri barədə diqqətəlayiq fikirlər ifadə edib. Ermənistanda bazar günü - iyunun 20-də keçiriləcək erkən parlament seçkiləri haqqında proqnozlarını səsləndirib.***

*“Bu sənədlə Turan dövlətinin hüquqi-siyasi bazası da yaradıldı...*

***- Cümşüd bəy, Azərbaycan Prezidenti İlham Əliyevlə Şuşa Bəyannaməsinin imzalanması zamanı Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan, Gürcüstan və İrandan ibarət altılı platformadan danışarkən, bir növ, Rusiya Prezidenti V.Putinə xitabən belə fikir işlətdi: “Bu altılı platforma ilə birlikdə artıq istəyirik ki, bölgə rahatlıqla, sülh içində yaşanan bir məkan olsun. Bu addımı atmaq üçün biz qardaşımla birlikdə hər cür fədakarlığa hazırıq. Cənab Putin də eyni qaydada bu cür fədakarlığa hazırdır. Bu istiqamətdə atılacaq addımlarla ərazi sülh bölgəsinə çevriləcək”. Sizcə, cənab Ərdoğanın “Putin eyni qaydada bu cür fədakarlığa hazırdır” deyiminin siyasi-diplomatik açması nədir?***

- Bu cümlənin açması ondan ibarətdir ki, birincisi, Ərdoğan Şuşaya NATO-nun Brüsseldəki toplantısından sonra gəldi. Bununla Türkiyə lideri diplomatik dillə dedi ki, mən buraya NATO toplantısından gəldim. Bu, həm də o deməkdir ki, Ərdoğan Qarabağa, başda ABŞ olmaqla, NATO-dan dəstək aldıqdan sonra gəlib.

Düzdür, Türkiyənin bu blokdakı son rolunu ümumi şəkildə yalnız Əfqanıstanda hava limanının qorunması ilə bağladılar. Əslində isə hal-hazırda Türkiyə ABŞ-dan sonra ikinci hərbi gücə malik olduğuna görə, NATO-nun sözçüsü statusundadır. Bir sözlə, bütün bunlar Rusiya liderinə bir mesajdır ki, gəl normal dolanaq, yəni sən bütün hər şeyi əlinə keçirməyə çalışma. Biz sənin ümumi siyasi maraqlarına hörmət edə bilərik, amma gəl, Azərbaycana rəhbərlik etmək haqda düşünmə...

***- Şuşa Bəyannaməsinin Azərbaycan və Türkiyənin, ümumiyyətlə, Türk dünyasının gələcəyinə istiqamətlənmiş əsas tezisləri sizcə hansılardır?***

- Birincisi, Şuşa Bəyannaməsi dünya durduqca Azərbaycanın müstəqiliyini əbədiləşdirdi. Bu, birmənalıdır.

İkincisi, bu sənəd son 100 ildə Azərbaycanın Türk dünyasına inteqrasiyasının hüquqi bazasını yaratdı.

Üçüncüsü, 1918-ci ildən bu yana ilk dəfə olaraq Azərbaycan Türkiyə ilə hərbi müstəvidə əməkdaşlıq elan etdi. Burada həm təhlükəsizliyin təmin olunması, həm də müdafiə sənayesinin yenidən formalaşdırılması məsələlərini vurğulamaq gərəkdir.

Dördüncüsü, Azərbaycanla Türkiyə arasında quru üzərindən çox sərfəli nəqliyyat-komunikasiya dəhlizinin - Zəngəzur dəhlizinin yaradılması qətiləşdi. Bu, o deməkdir ki, Azərbaycan yalnız Naxçıvana deyil, eyni zamanda yüz ildən çoxdur ayrı düşdüyü Türkiyəyə birbaşa qovuşacaq.

Bütün bunların fonunda beşincisi və gələcək baxımından bəlkə də ən əsası, Şuşa Bəyannaməsi ilə birmənalı şəkildə Turan Birliyinin yaradılmasının birinci hüquqi addımı atıldı. Hazırda paralel olaraq Özbəkistanda türkdilli dövlətlərin ombudsmanlarının yığıncağı keçirilir. Orada ilk dəfə olaraq türkdilli ölkələrin insan hüquqları üzrə müvəkkilliyinin katibliyi yaradılır. Bu da o deməkdir ki, türkdilli dövlətlər hüquqi müstəvidə də vahid statusla çıxış etməyə başlayır.

Məhz Jirinovski də ona görə can-fəşanlıq edir ki, Ermənistan və Tacikistan Rusiyanın milli maraqları və təhlükəsizliyi çərçivəsindədir. Rusiya üçün Tacikistan Orta Asiyanın “Ermənistanı”, Ermənistan isə Güney Qafqazın, yəni Azərbaycanla Gürcüstanın “Tacikistanı” statusundadır... Bütün bunlara rəğmən kimsə artıq Turanın yaradılmasının qarşısını ala bilməyəcək. Türkdilli dövlətlərin artıq Parlamenti var, onların hal-hazırda Astanada fəaliyyət göstərən Akademiyası, diplomatik sahədə Qara dəniz Əməkdaşlıq Təşkilatı kimi birlikləri var.

Dediyimiz kimi, Şuşa Bəyannaməsi ilə Turan dövlətinin hüquqi-siyasi bazası da yaradıldı. Yəni 2009-cu ildən bəri Azərbaycan və Türkiyənin apardıqları siyasət nəticəsində bu Birliyin bütün siyasi, hüquqi, iqtisadi və hərbi bazası bu və ya digər şəkildə formalaşdırılıb. Yaxın bir neçə il ərzində Turan artıq mövcud olacaq. Yəqin ki, bu, Avropa İttifaqı şəklində bir qurum olacaq. Yəni yarı dövlət, yarı beynəlxalq təşkilat... Avropa İttifaqının bir problemi var ki, oradakı 27 dövlətin hərəsi bir dildə danışır. Amma Turanda bizləri birləşdirən neçə amil var: dil, soykök, mədəniyyət və din...

***- Bəs Rusiya minlərlə kilometrlik cənub sərhədləri boyu Turan Birliyinin yaranmasını rahatca qəbul edəcəkmi?***

- Rusiya ciddi düşünməlidir. Məşhur türkəsilli filosof Lev Qumilyovdan bəri Rusiyanın bir dualizm nəzəriyyəsi var. Bunu 1988-1990-cı illərdə Azərbaycanda rəhmətlik Aydın Məmmədov çox güclü təbliğ edirdi... Yəni pravoslav rus Xristianlığı və İslam türk ikiliyi şəklində bir Avarasiya Birliyi yaradılmasından söhbət gedir. Burada söhbət ruslarla türklərin səmimi olaraq eyni hədəfə vurmasından gedir. Əgər hazırkı Rusiya lideri Putin həmin dualizm nəzəriyyəsinə əməl etməsə, Rusiya bir neçə yerdən yox, 10-15 yerdən parçalanacaq. Yəni bütünlüklə Rusiya dövlət kimi mövcud olmaq istəyirsə, Turan məsələsində Türkiyə və Azərbaycanın qarşısında durmamalıdır. Bunu Ərdoğan Azərbaycanın tarixən xarici işğallara qarşı döyüşkən bir mərkəzi olmuş Şuşadan gizli bir mesajla bəyan etdi... Buna subliminativ mesaj deyirlər... Şuşa tarixən iki dəfə xəyanətin qurbanı olub. Bu dəfə artıq xəyanətə imkan verilməyəcək...

***- Necə düşünürsünüz, Putin bundan sonra özünün dostu sayılan Robert Köçəryan kimilərin seçkilərdə qələbəsinə birbaşa dəstək verərək Ermənistanda revanşist qüvvələrin qələbəsini təmin edə, onların 10 Noyabr razılaşmasını pozmasına göz yuma və sonra deyə bilərmi ki, Rusiya nə edə bilərdi, demokratik seçki oldu, qalib gəldilər, indi də Azərbaycanın Qarabağı azad etməsiylə razılaşmırlar...***

- Köçəryan və onun kimilərin hakimiyyətə qayıtma ehtimalı çox aşağıdır. Məsələ ondadır ki. Köçəryan gəlsə də belə, Ermənistan artıq ayın 21-i növbəti mitinqlərə hazırlaşır. Paşinyan bəyan elədi ki, biz seçilməsək, ölkədə heç nə alınmayacaq. Düzdür, Rusiya hazırda Ermənistanda 3 qüvvə ilə çıxış edir və səs çoxluğunu götürməyə çalışır. Putin bir şeyi başa düşsün ki, Azərbaycan da onu yaxşı tanıyır, dünyada onu yaxşı tanıyır. Əgər Putin yenə eyni ağılla hərəkət eləsə, nəticə Rusiya üçün heç də yaxşı olmayacaq. Onsuz da hazırkı durum Rusiyanın sonuna aparır. Kremlin Azərbaycan və Türkiyəyə qarşı qeyri-səmimi davranışları isə onun tam sonuna gətirə bilər. Azərbaycan da əvvəlki Azərbaycan deyil.

Biz istəmirik Rusiya ilə qarşıdurmaya gedək. Onların buradakı əlaltıları, rusbaşlılar, “5-ci kalon”, o cümlədən “Haykanuşun uşaqları” hələ də “bəlkə qaytardılar” mövqeyindən çıxış edirlər. Fəqət, dərk etmirlər ki, artıq o qatar getdi. Düzdür, Azərbaycanda Rusiya və Ermənistana işləyən “5-ci kalon”un hələ də xeyli gücü var. Rusiyaya gəldikdə parlamentdə onun gücü bəlkə də 50 faizdən çoxdur... Amma bütün bunlar Azərbaycan-Türkiyə birliyi qarşısında duruş gətirə bilməz...

***- Maraqlıdır ki, Azərbaycan dövləti Putinin Ermənistandakı seçkilərdə iştirak edən digər dostu, bacısı Bakıda ərdə olan Rusiya Erməniləri İttifaqının rəhbəri, erməni milyarderi Ara Abramyan haqda İnterpol vasitəsilə axtarış elan edib...***

- Bu, çox müsbət haldır. Əslində bilavasitə Azərbaycanla bağlı olan erməni şirkətləri var ki, onlar haqqında da tədbir görülməlidir. Məsələn, Rusiyanın erməni ruporu jurnalist, aparıcı Marqarita Simonyanın “UBER” şirkəti... Son araşdırmalarımıza görə, hazırda Bakıda ermənilərlə bağlı azı 5 şirkət fəaliyyət göstərir. Bunların hamısının kökünü qurutmaq gərəkdir..

***- Paşinyan bir neçə gündür, seçicilərlə görüşlərində deyir ki, “ bizim şərtlər qəbul olunmayacağı halda, Zəngəzur dəhlizinin açılmasından söhbət gedə bilməz”. Yəqin ki, bu, seçkiqabağı gedişdir, yoxsa?..***

- Sözsüz ki, bu, seçkiqabağı daxili auditoriyaya hesablanmış bir çıxışdır. Şuşa Bəyannaməsi ilə də Azərbaycan Türkiyə ilə həmin dəhlizin açılmasının hüquqi bazasını qoydu. İkincisi də Paşinyan heç yana qaça bilməz. Zəngəzur dəhlizinin açılması haqda iki sənədə imza atıb: həm 10 noyabr 2020-ci ildə, həm də 11 yanvar 2021-ci ildə. Ermənilər istəsə də, istəməsə də, Zəngəzur dəhlizi açılacaq. İndi hələlik ona qarşı çıxış etmək Paşinyana bir siyasi gediş üçün lazımdır. Özü də belə görünür ki, Ermənistan əhalisinin əksəriyyəti Paşinyana səs verəcək. Düzdür, ola bilər, bu səslər 50 faiz olmasın, amma Paşinyan da küçədən gəlmiş bir adamdır və hər yola gedənin biridir. Ona görə də o, Ermənistanın başbəlasıdır. Bizim neçə illər görə bilmədiyimiz işləri o gördü, “sağ olsun”. Ona uğurlar arzulayırıq...

***- Paşinyan “Sorosun uşağı” hesab olunduğundan, onun seçkilərdə qalib gəlməsi əvvəlki onilliklərdə Azərbaycan üçün də müəyyən təhlükələr yaratmış Sorosun Qafqazda, o cümlədən Bakıda mövqelərinin yenidən güclənməsinə gətirib çıxara bilər. Bu haqda nə düşünürsünüz?***

- Bəli, Paşinyanın “Sorosun uşağı” olmasından əvvəl onu da nəzərə almaq lazımdır ki, Rusiyanın Ermənistanda hərbi bazası, Qarabağda silahlı qüvvələri olsa da, ABŞ-ın da dünyada ən böyük səfirliyi Ermənistandadır.

Təsəvvür edin ki, cəmi 2 milyona yaxın əhalisi olan Ermənistan səfirliyindəki diplomatların sayı milyardlıq, yüzlərlə milyonluq əhalisi olan Çin, Hindistan, Rusiya kimi ölkələrdəkindən çoxdur. Sahəsinə görə ən böyük səfirlik İraq paytaxtı Bağdaddadırsa, əməkdaşlarının sayına görə birinci yerdə İrəvandakı səfirlikdir. 2021-ci ilin yanvarına olan məlumata görə, hazırda həmin binada 2500 amerikalı əməkdaş fəaliyyət göstərir. Moskvadakı ABŞ səfirliyində isə vur-tut 450-455 əməkdaş var. Ermənistan kimi kiçik bir ölkədə 2500 nəfərlik səfirlik faktiki olaraq qeyri-leqal bir informasiya bazası deməkdir... Bu da Vaşinqton üçün İrəvanın strateji əhəmiyyətini göstərir. Odur ki, ABŞ, o cümlədən Amerika dərin dövlətinin aləti olan Soros Paşinyanın arxasında var gücü ilə dayanaraq Ermənistandakı mövqelərini verməməyə çalışacaq. Bu, birmənalıdır...

Azərbaycana gəldikdə, hətta Ermənistanda Paşinyanın qalib gələcəyi halda belə, Bakıdakı Soros “uşaq”larının mövqeyi və imkanları İrəvandakılar kimi güclü deyil. Azərbaycandakı nümayəndələrini yalnız qrantla maliyyələşdirən Soros, Ermənistandakı adamlarını birbaşa maliyyələşdirir və onlar birbaşa hakimiyyət daxilində açıq şəkildə fəaliyyət göstərirlər... Bizimkilər isə hamısı qarmaqdan asılı vəziyyətdədir...

✍ *Sultan Laçın*

## “The Independent” Şuşa Bəyannaməsindən yazdı

**Böyük Britaniyanın “The Independent” onlayn qəzeti Azərbaycan və Türkiyə prezidentləri tərəfindən imzalanan Şuşa Bəyannaməsi barədə məqalə yayıb. Hafta.az xəbər verir ki, “Türkiyə və Azərbaycan liderləri işğaldan azad olunmuş ərazilərdə danışıqlar aparırlar” sərlövhəli məqalədə Türkiyə Prezidentinin işğaldan azad edilmiş bölgələrə səfərindən, Azərbaycan Prezidenti İlham Əliyevlə birgə imzaladıqları Bəyannamədən bəhs olunur.**




Qeyd edilir ki, əsrlər boyu Azərbaycan mədəniyyətinin mərkəzi olan Şuşa 1992-ci ildə Ermənistanın nəzarətinə keçsə də, 2020-ci il noyabrın 8-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilib. Strateji baxımdan mühüm əhəmiyyət kəsb edən Şuşada Rəcəb Tayyib Ərdoğan və Prezident İlham Əliyev arasında aparılan danışıqlar zamanı iki ölkənin təhlükəsizlik də daxil olmaqla, bir neçə sahədə əməkdaşlığının dərinləşdirilməsinə yönəlmiş Bəyannamə imzalanıb. Yazıda Azərbaycan Prezidenti İlham Əliyevin Bəyannamənin imzlanmasından sonra səsləndirdiyi fikirlər də yer alıb.

Həmçinin məqalədə Şuşa şəhəri Azərbaycan tərəfindən geri alındıqdan sonra onu ziyarət edən ilk xarici liderin məhz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan olduğu da vurğulanıb. Qeyd edilib ki, Türkiyə Prezidenti Şuşada bu ölkənin konsulluğunun açılacağı anonsunu verib.

Yazıda ötən ilin sentyabr-noyabr aylarında baş verən müharibə zamanı Azərbaycan Ordusunun qısa müddətdə Ermənistan silahlı qüvvələrini darmadağın etməsindən də danışılır. Bildirilir ki, Azərbaycan və Rusiya prezidentlərinin, həmçinin Ermənistanın baş nazirinin noyabrın 10-da imzaladığı üçtərəfli Bəyanatla müharibəyə son qoyulub və Ermənistan 30 ilə yaxın işğal altında saxladığı əraziləri tərk edib. Üçtərəfli Bəyanat Ermənistanda siyasi böhrana səbəb olub və baş nazir vəzifəsini icra edən Nikol Paşinyan növbədənkənar parlament seçkiləri təyin etmək məcburiyyətində qalıb.

## Müsahib



**Həvva Məmmədova,**
Xankəndinin keçmiş deputatı

# Xankəndi də Azərbaycandır...

***Şuşada imzalanan "Şuşa Müttəfiqlik Bəyannaməsi" dünyaya, xüsusilə də region dövlətlərinə növbəti mesajını verdi. Güc dövlətləri regiondakı iddialarını gerçəkləşdirmək üçün ikili oyunlarından əl çəkmək niyyətində deyil. Region yenə də gərginliyi və həllini gözləyən problemləri ilə diqqət çəkir. Bu və ya digər məsələlərlə bağlı hafta.az-a müsahibə verən Xankəndinin keçmiş deputatı Həvva Məmmədova bəzi məsələlərə aydınlıq gətirib.***

***- Həvva xanım, "Şuşa Müttəfiqlik Bəyannaməsi" "Dəmir Yumruğa" hansı gücü qatacaq?***

- Tam iki əsrdən sonra Qarabağın işğaldan azad olunması tarixi bir hadisədir. Başda Ali Baş Komandan, müzəffər Azərbaycan Ordusu olmaqla 30 illik həsrətə son qoyuldu. Bu illər ərzində işğal altında qalan torpaqlarımızın hansı vandalizmə məruz qaldığını nəinki Azərbaycan, bütün dünya siyasətçiləri, mediası, ölkəmizə səfər edənlərin hər biri gördü, bildi. Azərbaycanda heç bir insanlığa, heç bir beynəlxalq hüquqa sığmağan vəhşiliklər törədildi. Erməni faşistləri Azərbaycanın qəbiristanlıqlarını dağıdıb, qəbir daşlarından özlərinə pilləkən düzəltdilər.

Biz ermənilərin bu vəhşiliyini tək bu gün, sabah yox, bütün tarix boyu yazılarımızda, çıxışlarımızda əks etdirməklə ifşa eləməliyik. Heç bir xalq Azərbaycan xalqı qədər belə dəhşətlərə məruz qalmamışdır. Bir erməni kilsəsinə toxunmuş olsaydıq, ermənilər və onların havadarları bütün dünyanı ayağa qaldırardı. Ona görə də bütün dünya azərbaycanlıları, bütün Türk dünyası Azərbaycanın işğal altında qalan ərazilərində baş verən bu vandalizmi dünyaya çatdırmalıdırlar. Bu 30 il ərzində erməni hesab edirdi ki, işğal etdikləri əraziləri geri verməyəcəklər. Bir neçə il əvvəl deyirdilər ki, Qazax tərəfdən iqtisadi zona yaradaq, gediş-gəliş olsun, ticarət əlaqələri quraq. İşğal altında qalan ərazilərin azad olunmasını isə müzakirə etmək istəmirdilər. Bir növ, Qarabağın işğalını indiki nəslin ağlından çıxarmaq istəyirdilər. 2016-cı ilin Aprel döyüşlərindən sonra Azərbaycan xalqı öz torpaqlarını işğaldan azad etməyə qadir olduğunu göstərdi və 44 günlük müharibədə sübut etdi ki, bir qarış torpağını belə işğal altında qoymayacaq. Tarixi Azərbaycan torpaqları öz əzəli və əbədi sahiblərinə qaytarılacaqdır.

"Şuşa Bəyannaməsi" isə 100 ilə hesablanmış tarixi bir sənəddir. Bu Bəyannamənin içərisində hər şey vardır. Bu onu göstərir ki, Şuşa Türk dünyasının bir mədəniyyət mərkəzidir. Şuşa tarixən Azərbaycanın adı ilə bağlıdır. Azərbaycan Prezidenti dəfələrlə elan edib göstərdi ki, Pənahəli xanın dövründən tutmuş bu günlərə qədər orada yaşamış insanların hamısı azərbaycanlılardır. Tarixə nəzər yetirsək, hələ 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda əhalinin sayına və tərkibinə görə paytaxt statusu Şuşa şəhərinə verildi. Moskvada oturan ermənilərin havadarlığı ilə sonradan mərkəz Xankəndiyə verildi və aradan bir ay keçməmiş Xankəndinin adı dəyişdirilərək Azərbaycan xalqının qəddar düşməni olan Stepan Şaumyanın adı ilə adlandırıldı. Vilayət təşkil olunan gündən Dağlıq Qarabağda yaşayan azərbaycanlıların ən ağır günləri başladı. Yavaş-yavaş Qarabağa ermənilər yerləşdirildi.

Ermənistandan vəzifələrə kadrlar gətirildi, Qarabağın yeraltı, yerüstü sərvətləri talan edilib ermənilərə göndərildi. Dağlıq Qarabağın o xoş taleyi 1960-1982-ci illəri əhatə edir. Bu, ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdür. Heydər Əliyev Qarabağa xüsusi diqqət yetirirdi.

Şuşa ilə bağlı yayılan videokadrlardan da görünür ki, Azərbaycan Prezidenti cənab Tayyib Ərdoğanı Şuşa ilə tanış edərkən o yerləri bir-bir göstərir. O Heydər Əliyevin dövründə tikilmiş İcra Hakimiyyəti binasını, 9 mərtəbəli "Qarabağ" otelini, Vaqifin məqbərəsini, Xurşudbanu Natavanın, Üzeyir Hacıbəyovun ev-muzeylərini göstərir. Bütün bunların hamısı Heydər Əliyev dövründə Azərbaycan xalqı üçün yaradıldı.

***- Şuşada Prezident İlham Əliyev həmkarı Rəcəb Tayyib Ərdoğana bir yeri də göstərib deyir ki, bax, dağdan o tərəfi görürsünüz? O yer Xankəndidir. Ərdoğan "Otel oradamı?" soruşur və Prezident "Orada da olacaq", - deyir. Bu, hansı mesajdır?***

- Mən əslən Xankəndidənəm. Bu görüntüləri öz sosial şəbəkə hesabımda da paylaşmışam və ona çoxlu sayda baxanlar olub. Bu, tək xankəndlilərin yox, bütün azərbaycanlıların, bütün Türk dünyasının ürəyindən verilən bir mesaj oldu. Bu, Bəyannaməyə bərabər bir mesajdır. Əlbəttə, Xankəndidə "Qarabağ" oteli də olacaq və Ərdoğan səfərlərinin birində Xankəndidə dincələcəkdir. Bu o mesajdır ki, Xankəndi də Azərbaycandır! Xankəndi Xanın kəndidir.

Bilirsiniz ki, 1992-ci ilə qədər ora "Stepanakert" adlandırılırdı. 1992-ci ildən başlayaraq o şəhərə öz əzəli adı, Xankəndi statusu verildi, adı özünə qaytarıldı. Əlbəttə ki, biz Xankəndinə də qayıdacağıq. Buna çox az qalıb. "Şuşa Bəyannaməsi", ermənilər, Ermənistan, erməni havadarları üçün düşünmək üçün yeni bir fürsət verdi. Ərdoğan Şuşada "altılıq" deyilən ölkələrin adını çəkir və bölgəyə sülh və əmin-amanlığın gəlməsi üçün bu ölkələri birliyə çağırır. Bu, Ermənistana

> *"Bu, tək xankəndlilərin yox, bütün azərbaycanlıların, Türk dünyasının ürəyindən verilən bir mesaj oldu*

səslənən bir mesajdır. Ermənistanın Qarabağ klanından olan Köçəryanla Sarkisyandan bezən xalq onların hakimiyyətinə son qoydu. Levon Ter Petrosyan, artıq Ermənistanın uçuruma getdiyini, erməni hökumətinin məsləhətləşmələr aparıb ölkəni düşmüş olduğu çətin vəziyyətdən çıxarmağı təklif edib. Bu gün Ermənistanın özündə Azərbaycan dilində danışan insanlar var ki, onlar bu dili mükəmməlləşdirməyi hədəf qoyublar.

Ermənistanın Dövlət Universitetində Azərbaycan dili fakültəsi yaradılıb. Ermənilər Azərbaycan dilini bilən mütəxəssislər hazırlayırlar. Bu da onu göstərir ki, artıq Ermənistanın başqa çıxış yolu yoxdur. Məsələn, Petrosyan deyir ki, əgər bir ölkə parlament idarəçiliyinə verilirsə, bu ölkədə söhbət hansı idarəçilikdən gedə bilər? Deyir ki, seçkidən sonra vətəndaş qarşıdurması baş verə bilər, ölkədə xaos hökm sürür, iqtisadi tənəzzül yaşanır, uşaqları itkin düşənlərə cavab verən yoxdur. Bu o deməkdir ki, Ermənistan bir daha düşünməlidir.

***- Həvva xanım, bu gün Azərbaycanın nəzarətində olmayan ərazilərə, sülhməramlıların o yerlərə etdiyi erməni köçünə nəzər salsaq, necə hesab edirsiniz, hazırda hansı problemlərlə üz-üzə qalmışıq və növbəti addımlar nə olmalıdır?***

- Bu gün fotoşəkillərdən, videomateriallardan Qarabağda, Xankəndidə yaşayan ermənilərin hamısının oradan çıxıb-gediyini müşahidə edirəm. Prezidentin də səsləndirdiyi bir fikir vardır ki, Qarabağda o adamlar yaşayacaqlar ki, Qarabağda doğulmuş olsunlar. Qarabağa sonradan köçürülən insanların heç biri Qarabağda yaşaya bilməz. Sülhməramlılarla bağlı məsələlər - hamısı öz yerini tutacaqdır. Ermənistanda belə bir xaotik vəziyyət olduğu halda, Xankəndidə yaşayan ermənilər kimə arxalanır? Sülhməramlıların da bir vaxtı var. Onlar nə vaxta qədər burada yaşayan ermənilərə arxa duracaqlar? Bütün bunların bir sonu olacaq. Xankəndi Azərbaycanın əzəli torpağı, orada yaşayan xalqlar isə vətəndaşıdır. Kimlər Azərbaycanın qanunlarına tabe olacaq, orada yaşaya biləcək, kimlər olmayacaq, yol açıqdır.

Azərbaycan Ordusu öz tarixi ərazilərinə girəcək, o yerlərə nəzarət edəcəkdir. Hesab edirəm, imzalanmış Bəyannamədən sonra ermənilər papaqlarını qarşılarına qoyub bir daha düşünəcəklər. Onların iki yolu var: ya birbaşa Qarabağdan çıxıb-getməli, ya da Azərbaycan vətəndaşı kimi birgə yaşamağı öyrənməlidirlər. Bizim taleyimizə də belə mənfur qonşularla yaşamaq düşüb. Ermənilər bu ərazilərə köçürülüb gəlmiş insanlardır. Bu torpaqların sahibləri var.

Qarabağdan 4 dəfə köç olub. Biz 5-ci köç edənlər hesab olunuruq. 1920-ci, 1930-cu, 1940-cı illərdə, hətta 1936-cı il repressiyası dövründə Xankəndidən nə qədər əhali aclıq, qıtlıq bəhanəsi ilə Gəncəyə və başqa şəhərlərə köçürülüb. 4 min erməni əhalisi həmin vaxtlar Xankəndidə yerləşdirilib. Zaman-zaman bütün imkanlardan istifadə edərək Qarabağda ermənilərin sayını çoxaldıblar. Bir qədər əvvəl Heydər Əliyevin adını çəkdim. O, hər il müxtəlif ixtisaslı kadrları Qarabağa göndərilib orada yerləşdirilməsi üçün bütün gücünü, imkanlarını səfərbər edirdi.

***- Ermənilərin Qarabağa köçürülməsi bu gün də Rusiya sülhməramlılarının iştirakı ilə həyata keçirilir. Yenə də Azərbaycanda marağı olan dövlətlər Minsk qrupu dövlətləri formatında birləşərək Qarabağda köhnə status-kvonu bərpa etmək niyyəti ilə çıxış edirlər. Nəhayət, bu ikili standartlardan necə yaxa qurtara biləcəyik?***

- ATƏT-in Minsk qrupu özünün fəaliyyətsizliyi ilə tarixə düşdü. Biz uzun illərdir deyirdik ki, ATƏT-in Minsk qrupunun tərkibinə Türkiyə də daxil olsun. Təəssüflər olsun ki, erməni havadarlarının, böyük dövlətlərin təsiri ilə bu baş tutmadı. Bütün dövlətlər bir daha müşahidə etdilər ki, Minsk qrupu bu 30 il müddətində seyrçi mövqe nümayiş etdirdi. Minsk Qrupu Ağdama, Füzuliyə, Xankəndinə getdi. Bir dəfə də olsun, işğal altında qalan torpaqların ən ağır vandalizmə məruz qalması ilə bağlı danışmadılar.

Bu cür beynəlxalq təşkilatlar bizim nəyimizə lazımdır? Belə təşkilat bizim üçün nə işi gördü? Hansı məsələni ortaya qoydu? Hansı məsələni həll etdi? Heç birini. Belə təşkilatlardan üz çevirməliyik. Azərbaycan beynəlxalq konvensiyalara qoşulub, beynəlxalq təşkilatların üzvüdür. Nə yazıq, imtina edə bilmirik, amma hesab edin ki, bir gün o beynəlxalq təşkilatlar vicdanlarını qarşılarına qoyacaqlar. Bu təşkilatları ikili mövqeyə məcbur edən ABŞ Konqresində, Fransada olan erməni lobbisi, diasporasıdır. Ermənilər dünyaya səpələnmiş erməni diasporasının, lobbisinin gücü ilə nəfəs alırlar. Bu nə vaxta qədər davam edəcək? Ona görə, artıq "Şuşa Müttəfiqlik Bəyannaməsi"ndən sonra regionda marağı olan dövlətlər də təşviş içərisindədir. Başa düşdülər ki, Azərbaycanla diqtə dili ilə danışa bilməzlər. Azərbaycan Ordusunun döyüş təcrübəsi, əliyalın qayaları aşaraq düşmənə necə zərbə endirməsi Amerikada və digər ölkələrdə müzakirə olunur. 30 il ərzində erməni ordusu ətrafında yaradılan o mif dağıdıldı. Azərbaycan gücləndikcə beynəlxalq təşkilatlar da özləri üçün dərs alacaqlar. Azərbaycan Prezidentinin xarici jurnalistlərə 30-dan artıq verdiyi müsahibə hər biri ensiklopedik bir tarixi məcmuədir, 44 günün tarixidir. Bu 44 günlük müharibə göstərdi ki, Azərbaycan Ordusu gücləndikcə özləri bizim qarşımızda diz çökəcəklər.

***- Görünən odur ki, səsimizin dünyada eşidilməsi həm də beynəlxalq məhkəmələrə müraciət edib, cinayətkarların cəzalandırılmasının tələb olunmasından keçəcək. Ermənistandan təzminatın tələb olunması məqamı yetişmədimi? Bu istiqamətdə hansı addımlar atılmalıdır?***

- Ermənistandan, Qarabağdan, ətraf rayonlardan köçkün düşmüş, məcburi qovulmuş insanların əmlakının hamısı məhv edilib. Hər bir insanın evinin sənədləri əlindədir. İnsanlara dəymiş zərər hesablanmalıdır. İşğal olunmuş ərazilərdə tarixi abidələrimizin, məscidlərimizin, maddi-mədəniyyət abidələrinin hamısının təzminatı ödənilməlidir. Azərbaycana dəymiş ziyanın ödənilməsi ilə bağlı bir qurum yaradılmalıdır.

Bütün insanlar səfərbər olmalıdır. Ermənistan bu torpaqları işğal edib, bu qədər ziyanlar vurandan sonra günahı olmamış kimi kənarda dura bilməz. 1 milyon 300 minə qədər insanımızın qaçqın düşərək, nə qədər ağır şəraitdə yaşadığı hər kəsə bəllidir. O çadır-şəhərcikləri 2017-ci ildə ləğv edildi. Nə qədər insanımız ağır məhrumiyyətlərə düçar oldu.

Bəs bunun təzminatını kim ödəməlidir? Ona görə də hesab edirəm, Azərbaycanda bu işlə məşğul olan xüsusi qurum olmalıdır. Həmin qurum kəndbəkənd, şəhərbəşəhər araşdırıb əhalini və onun əmlakını qeydə almalıdır. Cənab Ərdoğan Füzulidə, Ağdamda gördüklərindən dəhşətə gəldi - sanki Füzuli adlı şəhər olmayıbmış; sanki Ağdam adlı şəhər olmayıbmış. Biz bütün bunları bir-bir qeydə almalıyıq. Ermənistan diz çökməlidir. Ermənistan Azərbaycana milyardlarla təzminat ödəməlidir. Ermənistanı rahat buraxa bilmərik, Azərbaycanda törətdiklərinə görə cavab verməlidir.

***- Həvva xanım, indi Ermənistanı daha çox Zəngəzur dəhlizinin açılması ilə bağlı məsələ narahat edir. Bu dəhliz bizi hara qədər apara bilər?***

- Ermənistanı qorxuya salan da elə budur. Ermənistanı qorxuya salan tarixi İrəvan şəhəridir. Zaman gələcək ki, o beynəlxalq məhkəmələr 1920-ci ildə Zəngəzurun ermənilərə necə verilməsi prosesinin araşdırılmasına yönələcək, haqq-ədalət bərpa olunacaq.

Bilmək lazımdır ki, bu tarixi torpaqlar səssis-səmirsiz erməniyə verilməyib. Bu xalq üsyan edib, etiraz edib. Bu xalqın üsyanı 70 il sovet arxivlərində gizlədilib, ört-basdır edilib. Hələ azərbaycanlıların 1948-1953-cü illərdəki deportasiya tarixi də var.

O deportasiya 1956-cı ilə qədər davam edib. Rus-erməni mənbələri deportasiyanın İrəvanda 23 rayonda aparıldığını göstərib, əslində isə 30 Azərbaycan kəndində aparılıb. Bəhanə o idi ki, guya xaricdən gələn ermənilərə torpaq çatışmır, ona görə də azərbaycanlılar könüllü olaraq köçürlər. Xaricdən köçən ermənilər isə azərbaycanlıların çıxarıldığı kəndlərə köçmədilər, hamısı şəhərdə qaldı. Görün, ermənilər, onların havadarları xalqımızın başına necə oyunlar açıblar. Əlbəttə ki, bu tarixi yerlər Azərbaycan torpaqlarıdır və Zəngəzur dəhlizi bizi o yerlərə qaytaracaq.

***✍ Tahirə Qafarlı***



## Azad edilmiş ərazilərdə inventarlaşdırılan obyektlərin sayı

**İşğaldan azad edilmiş ərazilərdə 10 483 daşınmaz əmlak və 2 824 infrastruktur obyekti olmaqla, 13 307 əmlakın inventarlaşdırma işləri tamamlanıb.**

Hafta.az xəbər verir ki, bunu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov özünün "Twitter" hesabında yazıb. Nazir, həmçinin bildirib ki, 1 525 km avtomobil yolunun, 292 km elektrik təchizatı xəttinin, 45 km qaz təchizatı və 19 km su təchizatı xəttinin, o cümlədən 249 km suvarma şəbəkəsinin inventarlaşdırma işləri başa çatıb.

## "Məcburi köçkünlərin qayıdışı qarşıda duran əsas prioritetdir"



**Ceyhun Bayramov,**
Azərbaycanın xarici işlər naziri

**"Bu gün nümayəndə heyəti ilə birlikdə Antalya Diplomatiya Forumunda iştirak edən həmkarlarla, beynəlxalq təşkilatların rəhbərləri və onların müavinləri ilə bir sıra görüşlər keçirdik. Hesab edirəm ki, çox vacib və əhəmiyyətli nəticələr əldə olundu".**

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Antalyada jurnalistlərə açıqlamasında deyib. Nazir bildirib ki, fürsətdən istifadə edərək bölgədə baş verən son hadisələr, postmünaqişə dövrü ilə bağlı geniş məlumatların verilməsi imkanı olub.

"Eyni zamanda, görüşlərdə hazırkı mərhələdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərlə bağlı həyata keçirdiyi böyük həcmli bərpa, tikinti işləri barədə məlumat verildi. Bildirildi ki, 30 ilə yaxındır öz torpaqlarından didərgin düşmüş məcburi köçkünlərin geri qayıtması ölkəmiz qarşısında duran əsas prioritetdir", - deyə XİN başçısı qeyd edib.

## "Mediada islahatlara doğru" seminarları davam edir



**Medianın İnkişafı Agentliyi və "ADA" Universitetinin İxtisasartırma Proqramlarının birgə təşkilatçılığı ilə keçirilən "Mediada islahatlara doğru" mövzusunda silsilə seminarlar davam edir. İyunun 18-də seminarlara üçüncü qrup media nümayəndələri - çap və online media təmsilçiləri qoşulub.**

Hafta.az xəbər verir ki, "ADA" Universitetinin prorektor müavini Aygün Hacıyeva seminarın əhəmiyyətindən danışıb, iştirakçılara uğurlar arzulayıb. Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov "Media haqqında" qanun layihəsi: yeni imkanlar və istiqamətlər mövzusunda çıxış edib.

Qanun layihəsində yer alan müddəalar barədə media nümayəndələrinə ətraflı məlumat verilib. Bildirilib ki, yeni sənəd media sahəsində ictimai münasibətlər sistemini tənzimləyən yeni normativ hüquqi aktın hazırlanmasını nəzərdə tutur. Vurğulanıb ki, qanun layihəsinin əsas məqsədi bütün media subyektlərinin, o cümlədən yeni yaranmış online media subyektlərinin də fəaliyyətinin və hüquqlarının müəyyən olunmasıdır. Daha sonra seminar iştirakçıları ilə qanun layihəsi ətrafında müzakirələr aparılıb.

Seminar "ADA" Universitetinin İctimai və Beynəlxlaq münasibətlər məktəbinin müəllimi Şəfəq Mehrəliyevanın "Müasir media mühitinə baxış" mövzusunda məruzəsi ilə davam edib. Qeyd edək ki, seminarların təşkilində məqsəd müasir media mühitinə birgə nəzər salmaq, media sahəsində innovativ təcrübələri araşdırmaq və mövcud media nəzəriyyələrinə uyğun ölkədə media islahatları prosesinə təkan verməkdir. İyunun 14-dən iyulun 10-dək davam edəcək seminarlarda 75 media qurumunun rəhbər üzvünün iştirakı nəzərdə tutulub. Seminarlar zamanı iştirakçılar qarşısında həm yerli, həm də xarici, o cümlədən Al Jazeera və Haber Global-ın mütəxəssisləri təcrübələri ilə bölüşəcəklər.

# Təhsil Tələbə Krediti Fondu hansı imkanları yaradacaq?

## Layihə

***Xəbər verdiyimiz kimi, əhalinin aztəminatlı təbəqələrindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, təhsil almaqda bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə Prezident İlham Əliyev "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Fərman imzalayıb. Fərmana əsasən, Fond təhsil tələbə kreditlərinin verilməsini təşkil edən qeyri-kommersiya hüquqi şəxsdir. Fondun nizamnamə kapitalının məbləği 80 milyon manat təşkil edir.***



**Yeni tədris ilindən tələbələrin böyük hissəsinin bu qurum tərəfindən maliyyələşməsini təmin etmək mümkün olacaq**

Fondun əmlakı nizamnamə kapitalından, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşacaq.

Fond qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Fondun fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malik olacaq.

Fond sərbəst pul vəsaitindən yalnız aşağıdakı istiqamətlər üzrə istifadə edəcək:

- *Fondun saxlanılması xərclərinin maliyyələşdirilməsi;*
- *təhsil tələbə kreditlərinin maliyyələşdirilməsi;*
- *dövlət qiymətli kağızlarının əldə olunması;*
- *beynəlxalq reytinq agentlikləri tərəfindən ölkə üzrə verilmiş reytinqdən maksimum iki pillə aşağı olan banklarda depozitlərin yerləşdirilməsi.*

Fərmana əsasən, Fondunun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün ictimai əsaslarla fəaliyyət göstərən 7 üzvdən ibarət Himayəçilik Şurası yaradılacaq. Qeyd olunub ki, Təhsil Nazirliyinin (2 nəfər), Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Mərkəzi Bankının (1 nəfər) və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin (1 nəfər tələbə) nümayəndələrindən ibarət 7 (yeddi) üzvü var. Şuranın üzvləri 3 il müddətinə təyin edilir və ictimai əsaslarla fəaliyyət göstərirlər. Şuranın üzvləri növbəti müddətə yenidən təyin edilə bilərlər. Şuranın üzvlərini təmsil etdikləri orqanın rəhbəri təyin və azad edir. Şuranın sədrini Nazirliyin Şurada təmsil edilən üzvləri arasından Azərbaycan Respublikasının təhsil naziri təyin edir. Şuranın üzvləri Fondun digər orqanlarında təmsil oluna bilməzlər. Fondun fəaliyyətinə cari rəhbərliyi 3 üzvdən - sədr və onun iki müavinindən ibarət İdarə Heyəti həyata keçirəcək. Eyni zamanda "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə "Təhsil Tələbə Krediti" altsistemi yaradılacaq.

Bəs, görəsən, yeni Fondun yaradılması tələbələrə hansı imkanları yaradacaq? Kreditlər hansı müddətə veriləcək?



**Kamran Əsədov,**
təhsil eksperti

*Yeni yaradılan qurumla tələbə kreditləri üçün 80 milyon manat ayrılıb və ayrılan 80 milyon manat 38-42 min tələbənin təhsil haqqını ödəməyə imkan verəcək*

Yeni Fondla bağlı detalları açıqlayan təhsil naziri Emin Əmrullayev bildirib ki, növbəti tədris ilindən ali təhsil alan tələbələrin böyük hissəsinin Təhsil Tələbə Kredit Fondu tərəfindən maliyyələşməsini təmin etmək mümkün olacaq. Onun sözlərinə görə, kreditlər veriləndə ilkin mərhələdə giriş balları nəzərə alınacaq: "Yüksək nəticə göstərilməsi ilk şərt olacaq. Güzəştlərin edilməsi də nəzərdə tutulacaq. Bu kredit kommersiya məqsədi daşımır. Gələcəkdə müxtəlif mənbələrdən Fondun maliyyəsi artırıla bilər. Hər hansı səbəbdən götürülən kredit geri qaytarıla bilmədikdə tələbəyə möhlət hüququ da veriləcək. Kredit məbləği birbaşa tələbəyə deyil, ali təhsil aldığı müəssisəyə veriləcək. Tələbə təhsili bitirəndən təxminən 20 il ərzində kreditini hissə-hissə ödəyəcək. Bu və ya digər səbəbdən ödəyə bilmədiyi, hərbidə olduğu, işləmədiyi və digər hallarda kiçik müddətli möhlət hüququ da veriləcək".

Nazir vurğulayıb ki, bu addımın atılmasında əsas məqsəd ali təhsildə əlçatanlığın təmin edilməsi, təhsildə bərabər imkanların yaradılmasıdır: "Təhsil Tələbə Krediti Fondu ali təhsildə mühüm dəyişikliklərə gətirib çıxaracaq. Fonddan həm dövlət, həm də özəl təhsil müəssisəsində təhsil alan tələbə istifadə edə bilər. Əsas məsələ ali təhsil müəssisəsinin lisenziyasının olmasıdır. Ümumiyyətlə, Fərmandan irəli gələn məsələlər müəyyən qaydalarla tənzimlənəcək, bu qaydalar növbəti bir ay ərzində hazırlanıb Nazirlər Kabinetinə veriləcək və təsdiq ediləcək. Bu kreditlər çox aşağı, təxminən 2 faiz olacaq. Kreditlər sosial həssas qrupdan olandan üçündür. Sosial həssas qrupdan olmayanlar üçün isə qaydalar açıqlanacaq.

Ehtiyacla yanaşı, giriş ballarına da baxılacaq, yüksək nəticə bizim üçün əsas şərtlərdən olacaq. Müvəffəqiyyət göstərici olan və kredit alan tələbə ilə bağlı müvafiq güzəştlər nəzərə alınacaq. Amma vətəndaş məsuliyyəti və dayanıqlılıq baxımından, ödənilmiş maliyyə geri qaytarıldıqca digər tələbələrin oxuma şansı da olacaq".

O deyib ki, kreditin məbləği təhsil haqqı məbləğindən artıq olmayacaq: "Himayəçilər Şurası tərəfindən təhsil kreditinin yüksək həddi müəyyən ediləcək. Belə də ola bilər ki, təhsil haqqının 80 faizi ödənilsin. Bu, daha çox əlavə kömək üçündür. Kredit tələbəyə yox, onun oxuduğu ali və ya orta ixtisas təhsil müəssisəsinə köçürüləcək.

Bu da yenə müzakirə mövzusudur, öz hesabına oxuyan tələbələr təhsil haqqının müəyyən qismini özü ödəyirsə, müəyyən qismini də kreditlə ödəyə bilər. Amma tələbənin təhsil aldığı 4 ildə ailənin sosial vəziyyəti də dəyişilə bilər. Ona görə kreditlər hər tədris ili üzrə veriləcək. Fondun Nizamnamə kapitalı 80 milyon manatdır, amma əlavə də ola bilər. Tələbənin təhsil haqqı tam və ya qismən ödənilə bilər. Azərbaycanda təhsil haqqı 900 manatdan 7000 manata qədərdir. Ola bilsin peşə məktəblərində daha da az olsun. Daha çox bakalavr və magistr səviyyəsi üzrə kredit olacaq. Digər qruplar üzrə yəqin ki, araşdırma aparılacaq".

Onun sözlərinə görə, təhlillər göstərir ki, orta hesabla 95 faiz tələbə Universiteti bitirir, digər 5 faiz tələbə təkcə təhsil haqqı yox, başqa səbəblərdən də bitirə bilmir: "İnkişaf etmiş ölkələrdə 30-40 faiz tələbə ali təhsili bitirə bilmir, əsas səbəb də imtahanları verə bilməməyi olur. Amma bizdə tələbələr imtahan verirlər, amma təhsilin keyfiyyəti əsas amildir. Təhsil güzəşti həm də keyfiyyətdə güzəşt deməkdir. Şəhid ailələri, əlilliyi olan şəxslərlə bağlı şərtlər yerində qalır, amma ödənişli şərtlərlə oxuyanlar kredit ala bilər. Konkret şərtlər Himayəçilər Şurası tərəfindən hazırlanacaq və Nazirlər Kabineti tərəfindən təsdiq ediləcək. Bu kredit xaricdə təhsil alanlar üçün yox, Azərbaycan universitetləri üçün nəzərdə tutulub. Kredit Azərbaycanda təhsil alan xarici tələbələrə də şamil edilməyəcək".

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

### Ekspert rəyi...

**■ Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən təhsil eksperti Kamran Əsədov deyib ki, son 7 il ərzində 5 mindən artıq tələbə məhz təhsil haqqını ödəyə bilmədiyinə görə universitetlərdən xaric edilib:**

"Əslində 2013-cü ildə "Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nda Təhsil Tələbə Krediti Fondu yaradılması nəzərdə tutulmuşdu, amma yaradılmamışdı: "Məlumdur ki, hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Bunu dövlət təmin edir. Amma bu gün ali təhsil müəssisələrini bitirənlərin 42 faizi işlə təmin olunur. Bunun üzərində işləmək lazımdır. Çünki kredit götürüb təhsil haqqı ödəyən şəxslər potensial problem kreditora çevrilir. Yəni Azərbaycanda hal-hazırda tələbələrə güzəştli kreditlərin veriləsi mövcud deyil. Olan da Maarifçi Kreditin Fondu idi. O da özəldir və büdcəsi aşağı olduğundan mövcud ehtiyacı qarşılaya bilmirdi. Yeni yaradılan qurumla tələbə kreditləri üçün 80 milyon manat ayrılıb və ayrılan 80 milyon manat 38-42 min tələbənin təhsil haqqını ödəməyə imkan verəcək". K.Əsədov onu da vurğulayıb ki, Avropa ölkələri və ABŞ, postsovet məkanından isə Rusiya, Ukrayna, Belarus, Qazaxıstan və Özbəkistan təhsil kreditləşməsini tətbiq edirlər: "Məsələn, ABŞ-da bununla Federal Agentlik məşğul olur. Agentliyin çox böyük dövriyyəsi var. Kreditlər 3 növdür: federal tələbə krediti, valideyn krediti və özəl kredit. Hər biri müxtəlif qruplara və şərtlərlə verilir, faizlər çox aşağıdır. Dövlət yaxşı oxuyan tələbələr üçün bir sıra başqa güzəştlər də tətbiq edir. Bəzi ştatlarda təhsildə, elmdə yüksək nəticə əldə edən tələbələrə o kreditlər bağışlanır. Analoji qurumlar Almaniyada, Fransada, Böyük Britaniyada, Şərqi Avropa ölkələrində də var. Kreditlərin mənbəyi kimi adətən dövlət resursları çıxış edir, amma dövlətin stimullaşdırdığı özəl fondlar, banklar da bu prosesdə iştirak edə bilir. Həmçinin universitetlərin özləri də kredit ayırırlar. Əksər ölkələrdə faizlər çox aşağı, müddət uzun olduğu üçün qaytarılmasında çətinlik yaratmır. Bəzi ölkələrdə faizlər yalnız texniki xərcləri örtəcək həcmdə, yəni 1-2 faiz təşkil edir".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Bu ilin yanvar-may aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən 732,6 min şəxsə sosial müavinət və Prezidentin aylıq təqaüdləri ödənilib. Onlardan 437,4 mini aylıq və birdəfəlik sosial müavinətlə, 295,2 mini Prezidentin aylıq təqaüdləri ilə təmin olunub. Qeyd olunan müavinət və təqaüdlər üzrə əhaliyə ötən ilin müvafiq dövrünə nisbətən 6,7 faiz və ya 26,2 milyon manat çox olmaqla, 420,1 milyon manat ödənilib.

■ Ağdamın işğaldan azad olunan ərazilərinin minalardan təmizlənməsi prosesi davam edir. Bunu Trend-ə açıqlamasında Ağdam rayon İcra Hakimiyyəti başçısının müavini Allahverən Əliyev deyib. O bildirib ki, hazırda Ağdam şəhərinin mina və partlamamış sursatlardan təmizlənməsi işləri görülür: "Hazırda şəhər və bir neçə kəndin ərazisi təmizlənir. Şəhərdə artıq tikinti işləri başlanır. Kəndlərin əkin sahələri isə təmizlənərək payızlıq əkinə hazırlanır".



■ Rusiya Qarabağda vəziyyətin sabitləşməsi ilə bağlı Azərbaycan, Türkiyə və Ermənistanla sıx təmasdadır. Bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib. O bildirib ki, bu məsələ ilə bağlı atılan bütün addımlar Cənubi Qafqazda vəziyyətin sabitləşməsinə, infrastrukturun, nəqliyyat logistikasının inkişafına gətirib çıxarmalıdır: "Eyni zamanda bu addımlar gərginliyin artımına xidmət edəcək heç bir elementə yol açmamalıdır".

■ Rusiyada son sutka ərzində 17 262 nəfər koronavirusa yoluxub. Bu, fevralın 1-dən sonra qeydə alınan ən yüksək göstərici olub. Ölkədə bu günədək korornavirusa yoluxanların sayı 5,3 milyon nəfərə yaxınlaşıb. Eyni zamanda ötən gün Rusiyada 453 nəfər koronavirusdan ölüb ki, bu da martın 18-dən sonra ən yüksək rəqəm olub. Ölkədə koronavirusdan ölənlərin sayı 128 mini ötüb.



■ BMT Baş Assambleyasının hazırki Baş katibi Antoniu Quterrişin ikinci müddətə seçilməsi barədə qərar qəbul edib. Müvafiq qərar Baş Assambleyanın 75-ci sessiyasının sədri Volkan Bozkır tərəfindən iclasda elan edilib. Bundan sonra A.Quterrişin andiçmə mərasimi keçirilib. Bununla da, BMT-nin hazırki rəhbərinin səlahiyyət müddəti 2026-cı ilin dekabrın 31-dək uzadılıb.

■ Azərbaycanda fiziki şəxslərin əmanətlərinin strukturunda manatla depozitlər 2015-ci ilin fevralından bəri ilk dəfə üstün paya sahib olub. Bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) məlumatında deyilir. Son beş ayda isə (iyunun 1-nə) əhalinin müddətli manat əmanətləri 16,1% artıb.

# İnsan hüquqları təşkilatlarına çağırış

***"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamı ilə ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci il iyunun 18-də Azərbaycan Respublikasında ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edildiyi və insan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edildiyi nəzərə alınaraq, hər il iyunun 18-i Azərbaycan Respublikasında İnsan hüquqları günü kimi qeyd olunur". Hafta.az-ın xəbərinə görə, bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in sualını cavablandırarkən deyib.***



**Leyla Abdullayeva,**
Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi

*Azərbaycan bütün insan hüquqları və əsas azadlıqlarının universallıq, qarşılıqlı bağlılıq və bölünməzlik prinsiplərinə sadiqdir*

O bildirib ki, Azərbaycan bütün insan hüquqları və əsas azadlıqlarının universallıq, qarşılıqlı bağlılıq və bölünməzlik prinsiplərinə sadiqdir: "1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiya ölkəmizdə insan hüquqları və əsas azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi müəyyən edib. Sənədin "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" fəsli insan hüquqlarının geniş dairəsini əhatə edən 48 maddəni özündə əks etdirir.

Bildiyiniz kimi, ölkəmiz insan hüquqları sahəsində əsas beynəlxalq hüquqi sənədlərə tərəfdir. İnsan hüquqları sahəsində əsas beynəlxalq sənədlərə qoşulmaqla yanaşı, Azərbaycan onlardan irəli gələn müddəaların həyata keçirilməsi istiqamətində beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir. Bu təşkilatların sırasında BMT-nin insan hüquqlarının təşviqi və müdafiəsi sahəsində fəaliyyət göstərən müqavilə-əsaslı qurumları, ATƏT, Avropa Şurası və Avropa İttifaqı mühüm yer tutur".

XİN rəsmisi qeyd edib ki, insan hüquqlarının və əsas azadlıqların qorunması və təşviq edilməsi Azərbaycan Hökumətinin gündəmindədir: "Hazırda ölkəmiz ərazilərinin 30 ilə yaxın davam edən işğaldan azad olunması nəticəsində məcburi köçkünlərin doğma torpaqlarına təhlükəsiz və layiqli qayıdış hüququnun, bu şəxslərin sosial, iqtisadi, mədəni hüquqlarının, işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən media nümayəndələrinin peşə fəaliyyətlərini maneəsiz yerinə yetirə bilmələri ilə bağlı söz azadlıqlarının təmin olunması kimi çağırışlarla üzləşir.

Bu xüsusda, tərəfimizdən bir daha beynəlxalq insan hüquqları təşkilatlarını bölgədə yaxşı qonşuluq münasibətlərinin bərpasına yönəlmiş 10 noyabr 2020-ci il tarixində Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanmış üçtərəfli bəyanatın həyata keçirilməsini dəstəkləməyə, insan hüquqları və əsas azadlıqlarına seçkili münasibət sərgiləməkdən yayınmağa çağırırıq".

# Aran Qarabağın su problemi

## İqtisadiyyat

***44** günlük Vətən müharibəsi nəticəsində işğal altında olan tarixi torpaqlarımızın düşmən əsarətindən geri qaytarılması bu ərazilərdə post-konflikt bərpa prosesinin başlanmasına zəmin yaratdı. Bu gün azad olunmuş torpaqlarımızda tariximizi, mədəniyyətimizi və iqtisadiyyatımızı yenidən canlandırmaq və bərpa etmək üçün mərhələli şəkildə yenidənqurma işləri həyata keçirilir. Bununla bağlı sözügedən ərazilərdə aidiyyəti qurumlar tərəfindən müəyyən təhlillər aparılır, bərpa prosesinin sürətləndirilməsi üçün operativ tədbirlər görülür.*



### İşğaldan azad olunmuş ərazilərdəki anbarlardan bu il də tam gücü ilə istifadə etmək mümkün olmayacaq

Qeyd edək ki, ekspertlər işğaldan azad olunmuş ərazilərin yaxın gələcəkdə ölkə iqtisadiyyatında mühüm paya malik olacağını proqnozlaşdırırlar. Mütəxəssislərin fikrincə, xüsusilə bu ərazilərdəki su ehtiyatları suvarılan torpaqların artırılmasına, suya olan tələbatın ödənilməsinə, digər su ehtiyatlarının paylanmasına və idarə olunmasına yetərincə müsbət təsir göstərəcək. Yeri gəlmişkən, Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycanın meliorasiya və su təsərrüfatı fonduna külli miqdarda ziyan dəyib. Səhmdar cəmiyyətinin işğal altında 125 min 800 hektar suvarılan torpaq sahəsi qalmışdı. Həmin əraziləri suvarma ilə təmin edən 6 426 kilomert suvarma kanallarımız, 1 429 subartezian quyusu, 9 su anbarı, 7 sututarı, 88 nasos stansiyası, 7 mindən çox hidrotexniki qurğu və s. su təsərrüfatı obyektləri işğal altında qalmışdı. Proqnozlara görə, qələbədən sonra həmin obyektlərin tam işə düşməsi su təminatı çətin olan ərazilərə suyun davamlı

“

*Elə yerlər var ki, minanı sanki kamazla gətirib töküblər, Suqovuşan anbarından çıxan 5,2 km magistral kanal var, hər iki tərəfi minadan təmizlənib qurtarıb*

verilməsinə, əkin sahələrinin genişləndirilməsinə, su qıtlığının aradan qaldırılmasına, kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə edilməsinə və ekoloji tarazlığın bərpa edilməsinə təminat yaranacaq. Bütün bunlar isə son nəticədə ölkədə bol məhsuldarlığın yaranmasına imkan verəcək. Bəs, görəsən, qələbənin başa çatmasından keçən 8 ay ərzində su təminatı çətin olan ərazilərə suyun davamlı verilməsi üçün hansı addımlar atılıb? İşğaldan azad olunmuş ərazilərdə yerləşən su anbarlarının və su tutarlarının neçə faizinin fəaliyyəti tam bərpa olunub? Həmin ərazilərdə yeni kanalların çəkilməsi istiqamətində hansı addımlar atılıb?

**■ “Meliorasiya və Su Təsərrüfatı” ASC-nin sədr müavini Rafiq Aslanov bildirib ki, ötən müddət ərzində Suqovuşan su anbarının ərazisi minalardan və digər partlamamış sursatlardan təmizlənib, qiymətləndirmələr aparılıb:** “Artıq Suqovuşan bəndində təmir işlərinə başlanılıb. Birinci mərhələdə Suqovuşan bəndinin mexaniki avadanlıqları, suburaxıcı qurğuları, seqment qapıları, eləcə də 5,2 kilometr uzunluğunda magistral kanalın təmiri həyata keçiriləcək. İkinci mərhələdə uzunluğu 22 kilometr olan Tərtərçay Sol Sahil kanalı, üçüncü mərhələdə isə uzunluğu 70 kilometr olan Tərtərçay Sağ Sahil kanalı təmir-bərpa ediləcək. Təmir işlərinin birinci mərhələsi bu ilin sonunadək başa çatdırılacaq. İkinci mərhələnin bu il başlanması və gələn il yekunlaşdırılması nəzərdə tutulur. Üçüncü mərhələ üçün də işlər aparılır. Təmir-bərpa işləri nəticəsində ümumilikdə 96 min 200 hektar əkin sahəsinin su təminatı yaxşılaşacaq”.



**Qulu Kərimov,**
“Meliorasiya və Su Təsərrüfatı” ASC-nin rəsmisi

Rafiq Aslanov vurğulayıb ki, Suqovuşan Su Anbarının uzun illər işğal altında olması səbəbindən alternativ mənbə kimi subartezian quyularından istifadə edilib: “Respublikamızda istismarda olan 8250 subartezian quyusundan 517-də SCADA sistemi quraşdırılıb. Əlavə olaraq, bu il 400 ədəd subartezian quyusunda SCADA sistemi quraşdırılacaq. Bu sistem vasitəsilə su quyularına uzaqdan kameralar vasitəsilə nəzarət olunur, söndürülür-yandırılır, suyun verilməsi üçün limit qoyulur. SCADA sistemi həm enerji həm də su itkisinin qarşısının alması üçün vacib bir sistemdir. Çalışacağıq ki, bir neçə il ərzində bütün subartezian quyularında bu sistem quraşdırılsın”.

“Meliorasiya və Su Təsərrüfatı” ASC hazırda həm də işğaldan azad edilmiş Zəngilan, Qubadlı və Cəbrayıl rayonları ərazisində əlavə su mənbələrinin yaradılması ilə bağlı qiymətləndirmə işləri aparır.

Sədr müavini bildirir ki, həmin rayonlarla yanaşı, Kəlbəcər rayonunda da əlavə su mənbələri var. ”Tərtər çaydan başqa Bəsit çayı, Həkəri çayı, Bazar çayı mövcuddur. Çalışırıq ki, oralarda suyun toplanması üçün tədbirlər görək. Bunun üçün müəyyən işlər aparmışıq və hökumətə təqdim etmək istəyirik. Həkəri çayı üzərində su anbarı tikmək mümkündür. Bunun üçün təklifimizi hazırlamışıq. Cəbrayıl rayonu ərazisində ”Xudafərin” su anbarının tutumu 1,6 milyard kubmetrdən çoxdur. Ondan 13 kilometr aşağıda isə su tutumu 62 milyon kubmetr olan “Qız qalası” su anbarı yerləşir. “Xudafərin” su anbarında 100 meqavat elektrik enerjisi, “Qız qalası” su anbarlarında isə 40 meqavat enerji istehsalı nəzərdə tutulur. Bu su anbarları eyni zamanda suvarma üçün çox önəmlidir. “Xudafərin” su anbarı vasitəsilə 250 min hektardan çox sahənin su təminatı yaxşılaşacaq. “Qız qalası” su anbarından isə saniyədə 50 kubmetr axını olan yeni kanalın çəkilməsi nəzərdə tutulur. Bununla da Cəbrayıl rayonu ərazisində 12 min hektar sahədə suvarma həyata keçiriləcək”.

Qeyd edək ki, 1976-cı ildə istismara verilmiş Suqovuşan Su Anbarı Tərtərçay və Turaqaçay çaylarından daxil olan sular hesabına formalaşır. Ümumi həcmi 5,86 milyon kubmetr olan su anbarından Tərtər, Ağdərə, Goranboy, Yevlax, Bərdə, Ağdam, Ağcabədi rayonlarının ümumilikdə 96 min 217 hektar torpaq sahələrinin suvarma suyu ilə təmin olunması nəzərdə tutulub. Lakin 28 il bundan əvvəl baş vermiş Qarabağ müharibəsi nəticəsində Suqovuşan su anbarı işğal olunduğundan torpaq sahələrinin su təminatında ciddi çətinliklər yaranmışdı. Bununla yanaşı, suyun buraxılmaması çayda kəskin ekoloji problemlər yaradıb. Suqovuşanın işğaldan azad olunması ərazidə ekoloji tarazlığın bərpa edilməsi ilə yanaşı, uzun illərdən bəri su təminatı çətin olan bu ərazilərə suyun verilməsi, burada gələcəkdə əkinlərin davamlı aparılmasına, su qıtlığının aradan qaldırılmasına, kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə edilməsinə təminat yaradıb.

**■ Mövzu ilə bağlı hafta.az-a danışan “Meliorasiya və Su Təsərrüfatı” ASC-nin rəsmisi Qulu Kərimov bildirir ki, müharibə başa çatandan dərhal sonra 36 min hektardan artıq əkin sahəsinə Suqovuşan anbarından suyun verilməsi təmin olunub:** “Deməli, həmin əkin sahəsinin 20 min 450 hektarı Tərtər, 6 min 300 hektardan artıq Goranboy, 6 min 38 hektar Bərdə, 1872 hektar Yevlax rayonunun payına düşür. Sonradan müəyyən müddət suyun verilməsində məhdudiyyətlər yarandı. İndiki halda Suqovuşan su anbarından məhdud sayda da olsa, qeyd etdiyim rayonların əkin sahələrinə suyun verilməsi mümkün olur. Suqovuşan Su Anbarında əsaslı təmin işlərinin aparılması üçün qiymətləndirmə keçirilib, görüləcək işlər müəyyən olunub, tender baş tutub. Bu barədə təkliflər Nazirlər Kabinetinə təqdim olunub. Sadəcə olaraq çətinliyimiz ondadır ki, bu ərazilərdə həddindən artıq çoxlu mina var. Elə yerlər var ki, minanı sanki kamazla gətirib töküblər. Yəni, iş prosesi o qədər çətin bir şəraitdə gedir. Suqovuşan anbarından çıxan 5,2 km magistral kanal var, demək olar ki, o kanalın hər iki tərəfi minadan təmizlənib qurtarıb. Kanallar uzun müddət istifadə olunmadığından hamısı dolub. O mənada çətinliklər çoxdur. Suqovuşandan tam gücü ilə istifadə olunması üçün əsaslı təmir işləri aparılmalıdır. Bundan başqa, Ağdam rayonunda 23 milyon kubmetr həcmdə Xaçınçay Su Anbarı var. O ərazilərdə də minadantəmizləmə işləri aparılıb və baxış keçirilib. Həmin anbarın suyundan istifadə etmək üçün kanallar mövcud deyil.

Ona görə biz Xaçınçay Su Anbarından, demək olar ki, istifadə edə bilmirik. Anbar doludur, lakin infrastuktur olmadığından səmərəli istifadəsi mümkün deyil. Anbardan suyun tam gücü ilə çıxması üçün kanallar yenidən qurulmalıdır. Həmin ərazidə qiymətləndirmə aparılıb, hazırda layihə sənədlərinin hazırlanması istiqamətində işlər gedir. Füzuli rayon ərazisində Köndələnçay üzərində isə 3 su anbarı var. Köndələn-1, Köndələn-2, Aşağı Köndələnçay su anbarı. Bildiyiniz kimi, bu ayın 14-də cənab Prezident də həmin yerdə olmuşdu. Anbar 1982-ci ilə Ulu Öndərin tapşırığı ili tikilib. Məqsəd Füzuli rayonu ərazisində 6200 hektar əkin sahəsinin suvarılması olub. Köndələn-1, Köndələn-2 kiçiktutumlu anbarlardır. Əsas su anbarı Aşağı Köndələnçay su anbarıdır. Ümumi tutumu 9,5 milyon kubmetrdir. Bəndin uzunluğu 920 metr, hündürlüyü 25 metrdir. Hal-hazırda həmin su anbarından yalnız “Azərşəkər” şirkətinə məxsus 78 hektar şəkər çuğunduru sahəsi var ki, həmin sahəni suvarmaq mümkündür. Eyni zamanda, Füzuli rayonunun bir neçə kəndi o sudan istifadə edir. Ümumilikdə isə işğaldan azad olunmuş ərazilərdəki anbarlardan bu il də tam gücü ilə istifadə etmək mümkün olmayacaq”.

*✍ Sevinc*



# Dəymiş ziyanın aradan qaldırılması məsələləri müzakirə edilib

**Baş nazir Əli Əsədovun sədrliyi ilə 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə yaradılmış Dövlət Komissiyasının növbəti iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, iclasda Komissiyanın üzvləri və təcavüzə məruz qalmış şəhər və rayonların icra hakimiyyəti başçıları iştirak ediblər. İclas zamanı dəymiş ziyanın aradan qaldırılması sahəsində indiyə qədər görülmüş işlərə dair məlumatlar dinlənilib, konkret istiqamətlər və işlərin sürətləndirilməsinə dair tapşırıqlar verilib.

# Ermənistan anlamalıdır ki, onun üçün əsas təhlükə...

***Şuşa Bəyannaməsi sülhə və bölgənin təhlükəsizliyinə xidmət edir. On bir səhifədən ibarət sənəddə əks olunan bütün bəndlər münaqişənin həllindən sonra yaranan reallıqları səmərəli imkanlara çevirməyə və bölgənin rifahını sürətləndirməyə hesablanıb. Azərbaycan və Türkiyənin Cənubi Qafqazda əsas söz sahibi olması bütün bölgə dövlətlərinin marağına xidmət edir. Bu fikirləri hafta.az-a açıqlamasında millət vəkili Könül Nurullayeva deyib. Onun sözlərinə görə, bu iki ölkənin siyasi və iqtisadi iradəsi sayəsində bölgə səmərəli əməkdaşlıq platformasına çevrilib. Qarabağ münaqişəsinin həlli isə bu platformanı daha da genişləndirəcək:***



**Könül Nurullayeva,**
Milli Məclisin deputatı

”Azərbaycan və Türkiyənin təklif etdiyi 6-lı format bütün tərəflərə fayda gətirəcək. Şuşa Bəyannaməsinin imzalanması zamanı Azərbaycan və Türkiyə prezidentlərinin açıqladığı bəyanatdan da aydın oldu ki, bütün tərəflər bu əməkdaşlığın tezliklə reallaşmasında maraqlıdır. Yalnız hələ ki, Ermənistan adekvat davranış sərgiləmir. Halbuki cənab Ərdoğan da Şuşada olarkən dedi: “Türkiyə olaraq biz də coğrafi qonşuluq əlaqələrimizi daha dərin əməkdaşlıqlara yönəltmək istəyirik. Ermənistanın ona xoş niyyətlə uzadılan həmrəylik əlini tutmasını, ortaq gələcəyi birlikdə formalaşdırmaq fürsətindən yaxşı istifadə etməsini arzu edirik. Eyni zamanda Milli Məclisdə çıxış zamanı da Ərdoğan Ermənistana mesaj ünvanladı. Bildirdi ki, bu bölgənin sülhə ehtiyacı var. Buna nail olmalıyıq. Ermənistan Azərbaycan ilə problemlərini həll etdikcə Türkiyə də də lazı-

və təhlükəsizliyin təmin edilməsində birgə səylərini davam etdirmək niyyətindədirlər. Ermənistanın Şuşa Bəyannaməsini özü üçün təhlükə hesab etməsi heç bir məntiqə sığmır. Azərbaycan Xarici İşlər Nazirliyinin sonuncu bəyanatında da deyildiyi kimi, beynəlxalq hüququn fundamental normalarını, o cümlədən dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığını onilliklə ərzində kobud şəkildə pozan, bir milyonadək azərbaycanlının insan hüquqlarını

## Şuşa Bəyannaməsi yox, revanş avantürasıdır

mi addımları atacaq. Türkiyə sərhədlərinin açılmasının Ermənistan üçün hansı faydaları gətirəcəyini təxmin etmık çətin deyil. Bir sözlə, Azərbaycan Türkiyə müttəfiqliyinin dərinləşməsi konstruktiv əsaslara söykənir. Ermənistanın Şuşa Bəyannaməsi ilə bağlı mövqeyi bu ölkənin rasional düşünmək niyyətində olmadığını təsdiqləyir. Ərdoğanın Şuşa səfərini “təxribat” adlandırmaqla əslində Ermənistan öz təxribatçı siyasətindən əl çəkmədiyini bir daha təsdiqləyir. Azərbaycan və Türkiyə beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik

heçə sayan Ermənistan XİN-in indi beynəlxalq hüquq normalarından danışması riyakarlığın son həddidir. Ermənistanın bu gün beynəlxalq hüquqa istinad etməsi növbəti imitasiya siyasətidir. Beynəlxalq hüquqa həqiqətən də hörmət edən ölkə ilk növbədə özü bu norma və prinsiplərə riayət etməlidir. Sülh və təhlükəsizlik istəyən ölkə ilk növbədə Bakı ilə Ankaranın təklif etdiyi əməkdaşlıq platformalarını qəbul etməlidir.

Öz revanş avantüralarını bir kənara qoyub, konstruktiv mövqe nümayiş etdirməlidir. Ermənistan anlamalıdır ki, onun üçün əsas təhlükə Şuşa Bəyannaməsi yox, revanş avantürasıdır”.

*✍ Azad*

# Azərbaycanda 5 ilə Türkiyənin hərbi bazası yaradıla bilər

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan ərazisində Türkiyə hərbi bazasının yaradılmasının mümkünlüyünə dair bəyanatı Ankaranın yekun qərarı deyil, lakin ortamüddətli perspektiv üçün planları əks etdirir. Türkiyənin xarici və hərbi siyasət üzrə eksperti Kerim Has belə hesab edir.**

“Türkiyə lideri müəyyən ehtiyat nümayiş etdirərək bu planların yekun qərar olduğunu deməyib, çünki regionda qüvvələr balansını, eləcə də Moskva ilə münasibətlərin hazırkı səviyyəsini nəzərə alır. Bununla belə, bu mövqe Türkiyənin siyasi elitası üçün yaxın gələcəkdə olmasa da, ortamüddətli perspektivdə aktual olacaq”, - deyə o, “İnterfaks”a bildirib.

Ekspertin qiymətləndirməsinə görə, Azərbaycanda Türkiyə hərbi bazası 5 il ərzində yaradıla bilər. “Birmənalı olaraq, baza bir il sonra yaradılmayacaq. Bunun üç-dörd il müddətində baş verəcəyini ehtimal etmək olar, amma ən çox ehtimal olunan variant beş ildən sonradır. Bir çox əlamətlərə görə, söhbət Azərbaycanda Türkiyə aviabazasının yaradılmasından gedə bilər”, - deyə agentliyin müsahibi bildirib.



Has hesab edir ki, hadisələrin bu cür inkişafının reallığı Ankaranın Azərbaycanın siyasi elitalarına təsirinin artması ilə bağlıdır. Daha əvvəl Ərdoğan Azərbaycan ərazisində Türkiyə hərbi bazasının yaradılmasını istisna etməyib. O qeyd edib ki, belə bir opsiya iyunun 15-də Şuşada Türkiyə və Azərbaycan liderlərinin imzaladıqları Şuşa Bəyannaməsinin bəndlərinin xaricində deyil.

Bəyannaməyə əsasən, tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər.

Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır. Tərəflər iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səy göstərməyə davam edəcəklər.

*✍ Hafta.az*

# Misirdəki diaspor təmsilçimizin uğuru

## Həmyerlimiz Seymur Nəsirov Ümumdünya Fətva Evləri və Heyətləri Baş Katibliyinin müşaviri seçilib

**Diaspora**

***Bu günlərdə sevindirici məlumat aldıq - Misirdə Azərbaycan Diaspor Təşkilatları Birliyinin sədri Seymur Nəsirov Ümumdünya Fətva Evləri və Heyətləri Baş Katibliyinin müşaviri seçilib. Əlbəttə, Seymur Nəsirovun simasında soydaşımızın belə bir beynəlxalq təşkilatda yüksək vəzifə tutması birmənalı şəkildə ölkəmiz və xalqımız üçün fəxrdir. Maraqlıdır, uzun müddətdir Misirdə yaşayan və elmi sahədə böyük uğurlara imza atan, eləcə də yaratdığı diaspor təşkilatı ilə ölkəmizi layiqli təmsil edən Seymur Nəsirov sözügedən beynəlxalq təşkilatda yüksək posta necə seçilib? Təklif kimdən gəlib, namizədliyini kim verib? Suallara müsahibimizin özü cavab verir:***



**Seymur Nəsirov,**
Misirdə Azərbaycan
Diaspor Təşkilatları Birliyinin sədri

- Mən 26 ildir Misirdəyəm və 19 ildir ki, bu ölkədə təhsil alan əcnəbi tələbələrə rəhbərlik edirəm. Yəni bu tələbələrə yaşamaları üçün evlərin tapılmasında, yemək-içmək məsələlərinin həllində əlimizdən gələn yardım edir, hətta bir çoxlarına təqaüd də ayırırıq. Bu cür tələbələr çoxdur, dəqiq desəm, təxminən, 50 ölkədən gəlmiş mindən çox tələbəyə rəhbərlik edirəm.

Əl-Əzhər Universitetində təhsil alan xarici tələbələrdən necə alim yetişdirmək olar mövzusunda proqramlar yazırdım. Nəzərə alaq ki, bu universitetdə, təxminən, 40 min əcnəbi tələbə təhsil alır. Onlardan maksimum 10 min nəfəri təqaüdlə təmin olunur və tələbə yurdunda qalır.

Qalanları ya öz hesablarına tutduqları, ya da müxtəlif şirkətlərin, müəssisələrin təklif etdiyi evlərdə yaşayırlar. 2003-cü ildən tələbələrin qeyd etdiyim problemləri ilə məşğul olmaq üçün məni rəhbər təyin etdilər. Misirin keçmiş müftisi, parlamentin din və vəqflər komissiyasının sədri, professor Şeyx Əli Cümə işimə necə can yandırdığımı görüb dedi ki, nə çətinlik varsa, həll etmək üçün dəstək verməyə hazırdırlar. Mən də təklif etdim ki, tələbələrin yaşaması üçün bir bina azdır və onun dəstəyi ilə ikinci, üçüncü, dördüncü binaları təsis elədik...

***- O vaxt bir humanitar fond yaratmışdınız - Halqa Fondu. Bu, tələbələrin rifahını yaxşılaşdırmaq, daha yaxşı təhsil almalarına kömək göstərmək məqsədi güdürdü...***

- Həmin Halqa Fondu bu gün də Misirdə və dünyanın bir sıra ölkələrində çox məşhurdur. Heç bir reklam və s. maraq güdməyən Fond sırf ehtiyaclı tələbələrin yüksək təhsil almasına dəstək verir. Bu gün də 6 mindən çox tələbə Halqa Fondunda təhsil almaq üçün növbə gözləyir. Hazırda Fodun yetirmələri Amerikadan İndoneziyaya qədər dünyanın hər yerində yaşayır və işləyir, bir çoxları öz işlərini qurub. Onu da əlavə edim ki, bu nailiyyətimizi görən "Qavafil əl-Xeyr və əl-Əməl" Cəmiyyəti, eləcə də "Misr əl-Xeyr" Fondu məni dəvət edərək xarici tələbələr üzrə işə rəhbərlik vəzifəsini təklif etdilər. 2008-ci ildən "Qavafil əl-Xeyr və əl-Əməl" xeyriyyə cəmiyyətində və 2011-ci ildən "Misr əl-Xeyr" Fondunun xarici tələbələrin işi üzrə baş rəhbəriyəm.

2014-cü ildə təsis etdiyim diaspor mərkəzi və 2019-cü ildə təsis etdiyimiz Misir-Azərbaycan Dostluq Cəmiyyətində bu gün dünyanın 31 ölkəsindən 350-dən çox tələbə ödənişsiz təhsil alır. Uzun illər gördüyüm bu fəaliyyətlərin nəticəsi olaraq, bu gün Misir başda olmaqla, dünyanın əksər ölkələrində yaxın münasibətdə olduğum elm adamları var.

***- Fətva Evləri Baş Katibliyinin yaranma zərurətindən söz açın, sizin namizədliyinizi kim təklif etmişdi?***

- 2015-ci ildə İŞİD Yaxın Şərqə təhlükə saçdığı bir vaxtda, Misir Prezidenti Əbdulfəttah əl-Sisinin himayəsi ilə ölkədə din alimlərinin qatıldığı beynəlxalq konfrans keçirildi. Dünyanın hər yerindən nümayəndələrin qatıldığı həmin tədbirdə təklif edildi ki, mərkəzi ofisi Misirdə yerləşməklə Dünya Fətva Evləri və Heyətlərinin Baş Katibliyi təsis olunsun. O vaxt sözügedən konfransda Azərbaycan nümayəndələri - Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Hacı Salman Musayevin rəhbərlik etdiyi nümayəndə də iştirak edirdi. Baş Katibliyin işi dünyanın bütün ölkələrində fəaliyyət göstərən müftilər, şeyxlər və dini xadimlərlə daim təmasda olaraq fikir mübadiləsi aparmaq, məsləhətləşməkdir. Fətva verərkən təhlil etmək, məsələni tam öyrənmək lazımdır. Məsələn, Misirdə oturub Azərbaycan üçün fətva vermək doğru olmaz. Yəni Azərbaycanı tam öyrənmədən, orada yaşayan insanların həyat tərzini, oradakı siyasi, iqtisadi və sair sahələrdə real durumu bilmədən bu addımı atmaq düzgün deyil, eləcə də başqa bir ölkə üçün. Fətva vermək məkan və zamana görə dəyişir. Baş Katiblik yaradılarkən ora kimlər təyin olunacaq məsələsi ortaya çıxanda, əlbəttə ki, Misirdə bütün bu potensialı özündə cəmləyən ən məşhur şəxslərdən biri, ölkənin baş müftisi, professor Şovqi Əlləm mənim namizədliyimi irəli sürdü. Daha sonra Baş katib doktor İbrahim Nəcm də mənimlə görüşdü, oturub bir sıra məsələlərə dair fikir mübadiləsi apardıq. Öz proqramımı təqdim etdim, xarici ölkələrdəki müftilər və dini sahədə məşhur olan alimlərlə əlaqə saxlamaq tapşırıldı və əlbəttə, bu tapşırığı asanlıqla yerinə yetirdim. Bundan sonra maaş da təyin olundu, ofis də ayrıldı, vəsiqəmiz də verildi. Fətva Evləri Baş Katibliyi dünyanın harasında yerləşir-yerləşsin, hansı məzhəb olur-olsun, hamısı ilə işləyir, dini, elmi araşdırmalar, fikir mübadilələri aparır. Tutaq ki, Avropa ölkələrində Fətva evləri yoxdur, amma oradakı müsəlman əhali ilə məşğul olan icmalar, elmi mərkəzlər mövcuddur. Məqsədimiz onlarla birlikdə işləyərək radikalizm və islamafobiyanın bəşəriyyətə nə qədər ziyan vurduğunu insanlara təbliğ etməkdir.

> *"Misir tolerant ölkədir. Burada hansı islami konfrans keçirilirsə, xristianlar da məmnuniyyətlə iştirak edirlər*

***- Misirdə Ümumdünya Fətva Evləri və Heyətləri Baş Katibliyi barədə qısaca məlumat verərdiniz. 2015-ci ildə 21 ölkənin iştirakı ilə qurulduğu bəllidir. Maraqlıdır, həmin 21 ölkə hansılardır və niyə məhz 21 ölkə? Ümumiyyətlə, təşkilatın yaranması təşəbbüsü ilk olaraq kimdən gəlmişdi?***

- Namizədliyimi Misir tərəfi verdi. Əsas təsisçi ölkələr Misirlə yanaşı, Səudiyyə Ərəbistanı, Livan, İordaniya, Fələstin, Nigeriya, Birləşmiş Ərəb Əmirlikləri, Sudan, Maldiv, Çad, Azərbaycan, Qazaxıstan, Uqanda, Çeçenistan, Konqo Demokratik Respublikası, Yunanıstan, Filippin, Avropa Birliyi adına Fransa, Seneqal, Omandır. Eyni zamanda, fərdi şəkildə islam alimləri də vardı konfransda, haradasa 100 nəfərədək.

***- Bu gün 60-dan çox ölkə üzvdür Katibliyə Onların hamısı müsəlman ölkələridir, yoxsa başqa dinlərə məxsus dövlətlər də var? Ümumiyyətlə, təşkilat sırf İslamyönümlüdür, yoxsa qapısı bütün dinlərə açıqdır?***

- Misir tolerant ölkədir. Burada hansı islami konfrans keçirilirsə, xristianlar da məmnuniyyətlə iştirak edirlər. Təşkilatımıza dünyanın hər yerindən, ancaq Fətva Evləri və heyətləri üzvdür. Qeyri-müsəlman ölkələrində Fətva Evləri olmadığı üçün oradakı müsəlmanları təmsil edən icmalar, qurumlar mövcuddur.

Bu da onu göstərir ki, təşkilatda dolayısı Avropa ölkələri də təmsil olunur, Afrika və Asiya da. Qapımız açıqdır, gələcəkdə dünyanın istənilən ölkəsi təşkilata üzv ola bilər.

***- Bilmək istərdik: bu təşkilat indiki çətin dünyada siyasi-ictimai məsələlərə yaxşı mənada təsir etmək imkanındadır, yoxsa sadəcə alimlərin toplanış məkanıdır? Əgər siyasi-ictimai məsələlərə münasibəti varsa, bir-iki misal çəkin lütfən...***

- Təşkilat hələ yenidir, indi-indi nüfuz qazanır, dünyada tanınır və sair. Pandemiya dövründə bütün tədbirləri onlayn formada keçirib, xəstəliklə bağlı səfərlər, görüşlər baş tutmayıb. Amma bu keçicidir. Təşkilatın heç bir ölkənin iç işlərinə müdaxilə etmək kimi niyyəti yoxdur. Əsas hədəf islam alimlərini bir araya gətirərək insanlığa qulluq etməkdir. Təşkilatın bir qayəsi də radikalizmlə, islamofobiya ilə mübarizə aparmaqdır.

***- Baş Katibliyin Qarabağ məsələsinə dair mövqeyi necə olub və bu gün Azərbaycanla əlaqələri varmı? Varsa hansı səviyyələrdə, kimlərlə, nə kimi işlər görülüb ölkəmizlə, yeni planlar varmı və sair?***

- Təşkilatımızın Azərbaycanla sıx əlaqələri var. Bayaq dediyim kimi, Baş Katibliyin təsisçilərindən biri də məhz Azərbaycandır. Azərbaycan bütün konfranslarda fəal iştirak edir. İnşallah avqust ayında da dünyasəviyyəli konfrans keçiriləcək və Azərbaycan bu tədbirə ilk dəvət edilən ölkələrdəndir.

***- Qərargah olaraq Qahirədə yerləşən təşkilatın başqa ölkələrdə şöbələri varmı və ya yoxdursa açılması planlaşdırılırmı? Əgər açılacaqsa, şöbələrdə hansı sahənin adamları oturacaq və onların seçilib təyin olunması prosesi necə aparılacaq?***

- Düzdür, hazırda Baş Qərargah Qahirə şəhərindədir. Planda tutulub ki, yaxın gələcəkdə dünyanın müxtəlif ölkələrində təşkilatın filialı açılsın. Açılacaq yerli ofislərdə isə yaşadıqları ölkədə həm hökumət, həm də ictimaiyyət tərəfindən qəbul edilən insanlar çalışa biləcək. Yenə deyirəm, təşkilatımız hansısa ölkənin iç işlərinə qarışmaq kimi niyyət güdmür.

***✍ Vüsal Tağıbəyli***

## Erməni hərbçilərlə bağlı növbəti cinayət işi



**Erməni hərbçilər tərəfindən Laçın və Kəlbəcər rayonlarında mina basdırılması faktı üzrə Gəncə hərbi prokurorluğunda cinayət işi başlanıb. Bu barədə Baş Prokurorluğun məlumatında deyilir.**

Baş Prokurorluq "Noyan Tapan" agentliyinə və Ermənistan televiziyasına 2021-ci il iyunun 06-da müsahibə verərkən Kəlbəcər və Laçın rayonlarında təxminən 500-600 ha ərazini zəncirvari minaladıqlarını, bunun üçün 17 yük avtomobili həm tank, həm də piyada əleyhinə mina basdırdıqlarını etiraf edən Ermənistan silahlı qüvvələrinin ehtiyatda olan polkovniki Koryun Qumaşyana qarşı ittihamlar irəli sürüb.

K.Qumaşyanın şəxsiyyəti istintaqla araşdırılan digərləri ilə qabaqcadan əlbir olub cinayət əlaqəsinə girməsi müəyyən edilib. "K.Qumaşyanın minaların basdırılması ilə əlaqədar göstərdiyi məlumatların Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən təkzib edilməməsi və ya hər hansı rəsmi münasibət bildirilməməsi qeyd edilən faktların mövcud olmasına dəlalət edir. Həmçinin son zamanlar işğaldan azad edilmiş Laçın və Kəlbəcər rayonları ərazilərində soydaşlarımızın tank və piyada əleyhinə minalara düşərək həlak olmaları və müxtəlif dərəcəli bədən xəsarətləri almaları bir daha göstərilən faktların həqiqətə uyğun olmasını təsdiq edir", - deyə məlumatda qeyd olunur.

Yuxarıda göstərilənlərlə əlaqədar Gəncə hərbi prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb, qeyd edilən əməllərə görə K.Qumaşyan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən adam öldürmə), 120.2.7 (iki və ya daha çox şəxsi öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürmə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində məhkəmənin müvafiq qərarı ilə həbs qətimkan tədbiri seçilibvə o, beynəlxalq axtarışa elan edilib.

"Sözügedən və bu kimi digər cinayət faktlarına görə təqsirkar şəxslərin beynəlxalq hüquq normalarına əsasən məsuliyyətə cəlb edilməsindən ötrü Baş Prokurorluq tərəfindən mümkün olan bütün tədbirlərin görülməsi davam etdirilir", - deyə məlumatda vurğulanır.

## Azərbaycanda ilk jest dili lüğətinin veb-səhifəsinın hazırlanması işləri davam edir ®




**Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) elan etdiyi "Sosial layihələr" müsabiqəsinin qaliblərindən olan "Doğma jest dili" layihəsi çərçivəsində "NAR"ın maliyyə dəstəyi ilə veb-saytın hazırlanması işləri davam etdirilir.**

3 aydan artıq davam edən hazırlıq müddətində 3000-dən çox söz və söz birləşməsi jestlərinin izahedici mətnləri, şəkilləri və videoları sayta yerləşdirilib. "Doğma jest dili" lüğətinin elektron variantı eşitmə və nitq məhdudiyyəti olanlar və onların yaxınları, həmçinin bu qrup insanlarla işləyənlər üçün faydalı vəsait olacaqdır. Bundan başqa, saytın mobil versiyasının da hazırlanması nəzərdə tutulur.

Xatırladaq ki, "Karlara Dəstək" İctimai Birliyi tərəfindən müsabiqəyə təqdim edilən "Doğma jest dili" layihəsinin əsas məqsədi eşitmə və nitq qabiliyyəti məhdud olan insanların əmək fəaliyyəti ilə məşğul olmaq qabiliyyətinin artırılması və ətrafdakı insanlarla ünsiyyətin təşkil olunmasını xidmət edən jest dili lüğətinin hazırlanmasıdır. Qeyd edək ki, "Nar" eşitmə və nitq məhdudiyyəti olan insanların cəmiyyətə inteqrasiyası üçün müxtəlif layihələr icra edib.



**■ "Hamilələrə vaksinin əks-göstərişi ilə bağlı təlimat yoxdur". Bunu TƏBİB-in infeksion xəstəliklər üzrə işçi qrupunun həkim-infeksionisti Nəzrin Mustafayeva "COVID-19 və peyvəndlər" mövzusunda çıxışında deyib.**

O bildirib ki, amma bununla belə əvvəl ginekoloq müayinəsindən keçmək lazımdır: "Vaksinlərin təlimatında peyvəndin ana olmaq üzrə olan qadınlara əks-göstəriş yoxdur". "İki dozadan sonra antitel yaranmayan şəxslərə üçüncü doza vaksin vurulması aktiv müzakirə olunur", - Nəzrin Mustafayeva deyib. O bildirib ki, bu, ÜST tərəfindən təsdiq almayıb: "Bu ilin sonunda bununla bağlı təsdiq alındıqdan sonra üçüncü doza tətbiq oluna bilər".



**■ Suriyanın Cerabus şəhərindəki Amerna düşərgəsində saxlanılan, 6-sı qadın, 14-ü uşaq olan Azərbaycan vətəndaşları vətənə repatriasiya olunduqdan sonra onların reablitasiya və reinteqrasiya işləri həyata keçirilir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən hafta.az-a verilən məlumata görə, qeyd olunan şəxslərin ölkəmizə gətirilməsi istiqamətində Azərbaycan Hökuməti tərəfindən görülmüş mərhələli tədbirlərin davamı olaraq, həmin şəxslər reabilitasiya proqramına cəlb ediliblər. Onların reabilitasiyası fərdi plan əsasında Sosial Xidmətlər Agentliyinin sosial işçiləri və psixoloqları tərəfindən aparılır. Reabilitasiya və reinteqrasiya tədbirləri aidiyyəti dövlət qurumları ilə birgə əməkdaşlıq şəraitində həyata keçirilir.



**■ Rusiyanın koronavirusla mübarizə üzrə Operativ Qərargahı iyulun 1-dən etibarən Türkiyəyə uçuşların bərpası məsələsini nəzərdən keçirir. Bu barədə "Forbes" iki mənbəyə istinadən məlumat yayıb.**

Bildirilib ki, Rusiyanın cənubundakı kurortlar həddindən artıq yükləndiyindən, bu ölkədə koronavirusun yayılmasını sürətləndirə bilər və belə olan halda səlahiyyətli şəxslər Türkiyəyə uçuşların bərpasına dair qərar verə bilər. Operativ Qərargahdakı çalışan mənbənin sözlərinə görə, həftədə yeddi reys açıla bilər. Uçuşları hansı aviaşirkətin həyata keçirəcəyi hələlik məlum deyil. "Qərar verildikdən sonra bununla bağlı əlavə məlumat veriləcək", - deyə mənbə bildirib.



**■ Müddət müəyyənləşdirilməklə təyin olunmuş insan orqanizminin funksiyalarının itirilməsi 31-60% aralığında ardıcıl olaraq 15 il, 61-80% aralığında ardıcıl olaraq 10 il və 81-100% aralığında ardıcıl olaraq 4 il müddətindən sonra müddətsiz təyin olunacaq.**

Bu, "Əlilliyin müəyyən olunması Meyarları"nda əksini tapıb. eyd olunub ki, bu meyarların təsdiq edildiyi günədək əlillik təyin edilmiş şəxslərin əlillik müddətləri yuxarıda qeyd edilmiş müddətlərə daxil edilir. İnsan orqanizminin funksiyalarının sabit pozuntusunun ağırlıq dərəcəsindən asılı olmayaraq, Azərbaycan Respublikasının "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" qanunlarla müəyyən edilmiş yaşa görə əmək pensiyası və yaxud sosial müavinət almaq hüququ verən yaş həddinə çatan şəxslərə əlillik müddət göstərilmədən təyin ediləcək.



**■ Azərbaycanda 3 ildən bir məcburi enerji auditinin keçirilməsi nəzərdə tutulur. Bu barədə məsələ "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" yeni qanun layihəsində əksini tapıb.**

Qanun layihəsinə əsasən, məcburi enerji auditinin aparılması ilə bağlı tələblər Azərbaycan Respublikası rezidentlərinin Azərbaycan Respublikası ərazisindən kənarda yerləşən filial və nümayəndəliklərinə şamil edilmir. Təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq məcburi enerji auditi keçirilməli olan təsərrüfat subyektlərinin və qeyri-yaşayış binalarının siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi meyarlar əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.




**■ Azərbaycanda inflyasiyanın risk balansında artırıcı faktorların rolu yüksəlib. Bu barədə AMB-in məlumatında deyilir.**

Qeyd edilir ki, qeyri-monetar xarakter daşıyan xarici və daxili xərc amilləri, eləcə də təxirə salınmış tələbin fəallaşması fonunda faktiki inflyasiya artsa da hədəf dəhlizində qalmaqdadır. "İnflyasiyanın tələb amillərinin davamlılığı ilə bağlı qeyri-müəyyənliklər mövcuddur. İlin qalan dövründə qeyri-monetar amillərin inflyasiyaya təsirinin yüksələcəyinə baxmayaraq inflyasiya proqnozu dəyişdirilməyib" - məlumatda bildirilir. AMB-yə görə, tədiyə balansının yaxşılaşması makroiqtisadi sabitliyin başlıca lövbərini - məzənnə sabitliyini dəstəkləyir və inflyasiya amillərini tarazlaşdırır.

# İctimai Şura üzvləri missiyalarını necə yerinə yetirəcəklər?

## Aktual

***Bu** gün Azərbaycanda mərkəzi və yerli icra hakimiyyəti, eləcə də yerli özünüidarəetmə orqanlarında ictimai nəzarət məsələsi gündəmdədir. Bu məsələ "İctimai iştirakçılıq haqqında" qanunda əksini tapıb. Qeyd edək ki, 2014-cü ildə qüvvəyə minən bu qanuna əsasən müvafiq strukturlar yanında ictimai şuraların yaradılması məcburi xarakter daşıyır. Bu gün bəzi nazirliklərdə, komitələrdə, yerli icra hakimiyyətlərində artıq ictimai şuralar formalaşdırılıb. İctimai nəzarət mexanizmi olan ictimai şuralar həmin qurumların öz üzərinə düşən vəzifələri yerinə yetirə bilməsi üçün hansı təsiretmə qabiliyyətinə malik olacaq.*





**Rəfail Becanov,**
Daxili İşlər Nazirliyində İctimai Şuraya üzv seçilən jurnalist



**Mehriban Zeynalova,**
Daxili İşlər Nazirliyində İctimai Şuraya üzv seçilən QHT rəhbəri



**Məhluqə Qəhrəmanlı,**
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuraya üzv seçilən QHT rəhbəri

İctimai Şuranın yaradılması idarəçilikdə qüsurları müəyyənləşdirmək baxımından effektiv üsul sayılır. Bir çox orqanlarda ictimai şuralar və onlara seçilən üzvlər təmsil olunduqları dövlət qurumlarının işinin şəffaflaşmasında üzərinə məsuliyyət və öhtəlik götürüb.

Bəs, baş verə biləcək mənfi halların qarşısnı ala biləcəklərmi? İctimai şura üzvü olaraq məqsədə çatmaq üçün nə tələb olunur? İctimai Şura üzvü nəhəng qurumların içində əriyib gedə bilərmi?..

Bu və ya digər məsələlər ətrafında sualları cavablandıran bir sıra İctimai Şura üzvləri gələcək fəaliyyətlərini necə quracaqlarından danışıblar...

■ **Daxili İşlər Nazirliyində İctimai Şuraya üzv seçilən jurnalist Rəfail Becanov bildirib ki, üzv seçilmək insanın üzərinə ictimai vəzifələr qoyur.**

"Bu ictimai vəzifələri illərdir siyasətdə, jurnalistikada, QHT-də yerinə yetiririk. Cəmiyyətin problemlərini qaldırırıq, müzakirəyə çıxarırıq və həllinə çalışırıq. Yenə də eyni işi görəcəyik. İndi bu işi daha çox konkret bir ünvanda və səmərəli yerinə yetirməyə çalışacağıq". R.Becanov bu prosesdə əsas məqsədə toxunub. Onun sözlərinə görə, ictimai şuralara seçilən hər bir şəxs "İctimai iştirakçılıq haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən fəaliyyət göstərir və göstərəcək.

"Kimsə Kolumb olub Amerika kəşf edəsi deyil. İctimai Şura üzvünün səlahiyyət həddi var və hər kəs o səlahiyyətlər çərçivəsində fəaliyyət göstərəcək. Biz nə edə bilərik? Görünür, cəmiyyətdə bununla bağlı maarifləndirməyə ehtiyac var. Biz olduğumuz qurumlara təkliflər verə bilərik. Məsələn, dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi barədə hüquqi aktların layihələrinin hazırlanması ilə bağlı təkliflər hazırlayıb təqdim edə, müxtəlif ictimai əhəmiyyət kəsb edən məsələlərin həllinə dair vətəndaş cəmiyyəti institutlarının təkliflərini toplaya və müvafiq orqanlara təqdim edə bilərik. Seminarlar, konfranslar, sorğular keçirməklə ictimai rəyi öyrənə bilər və müvafiq orqanlara bunu tövsiyə edərik. Məqsədimiz qanunvericiliyin tələblərinə əməl etmək, başqalarından da qanunlara əməl etməsini tələb etmək olmalıdır".

Onun sözlərinə görə, adından da göründüyü kimi, İctimai Şura ictimai institutdur, Şura üzvlüyü isə ictimai vəzifədir. Ödənişli, imtiyazlı bir qurum, fövqəladə, səlahiyyətli vəzifə deyil. Korrupsiya ilə mübarizə aparmaq üçün cəmiyyətin ictimai nəzarət mexanizmlərindən biridir. Burada vicdan məsələsi, fərdlərin həyatı və düşüncəsi, dünyagörüşü, etibarlılığı əsas amildir. Yəni cəmiyyət qarşısında məsuliyyətli və etibarlı olmaq lazımdır.

■ **Daxili İşlər Nazirliyində İctimai Şuraya üzv seçilən QHT rəhbəri Mehriban Zeynalova bildirir ki, bu qurumun Azərbaycanın bütün ərazilərində fəaliyyətləri var və mövcud problemləri vaxtında müəyyən etmək, vətəndaşların səsini ora çatdırmaq operativlik ciddi əmək tələb edir.** Bu mənada o, DİN-də İctimai Şuraya üzv seçilməyi, ilk növbədə, böyük məsuliyyət və öhdəlik kimi dəyərləndirib.

"İctimai Şura üzvləri olaraq etik-davranış normalarına riayət etmək, o cümlədən qurumun fəaliyyətinin nəzarət mexanizmində ədalətliliyi, qurumun fəaliyyətində müstəqilliyi qorumaq mənim üçün əsas məsuliyyət və öhdəlikdir. Eyni zamanda, İctimai Şuraya üzv olaraq əsas məqsədə çatmaq üçün təkliflərimi doğru-dürüst formalaşdırmaq və həyata keçməsində iştirak etməklə yanaşı, prosesə nəzarət etmək əsas məqsədlərimdəndir. Əsas məqsədim qadın polislərin sayının artırılması, o cümlədən polislərin gender əsaslı zorakılıq qurbanları ilə davranış qaydalarına nəzarət etmək, yeri gəlsə onları maarifləndirmək, məlumatlandırmaqdır. Bütün hallarda İctimai Şuranın fəaliyyəti birbaşa nəzarətdir. Bu, vəzifə deyil, böyük bir öhdəlikdir.

İctimai şuralarda müxtəlif sahələr üzrə vətəndaş cəmiyyəti üzvlərinin təmsil olunur. Polis orqanı da elə bir qurumdur ki, həyatın müxtəlif sahələrində fəaliyyəti görünür. Bu, asayişin qorunması, vətəndaşların onlara nəzarət etməsinə, qanunlara nəzarət etməsinə nəzarətdir.

Polisin özünün də etik davranış normaları, vəzifə öhdəlikləri var. Polis haqqında qanuna əsasən, qanunlara icrasına nəzarət güclənməlidir. Ona görə də mən qadın problemləri, insan alveri, zorakılıq sahələrində polisin fəaliyyətinə nəzarəti gücləndirə bilərəm. Gördüklərimi, haradasa davranış pozqunluğunu, qanun pozuntusunu, onların aradan qaldırılmasını həm maarifləndirmə, həm də təkliflər qismində həyata keçirəcəyəm".

> *"*
>
> *İnsan, vətəndaş kimi cəmiyyətin etibarını, etimadını doğrultmaq çox önəmlidir*
>
> ---
>
> *İctimai Şuraya üzv olmaq kimisə asmaq-kəsmək deyil...*
>
> ---
>
> *Biz məmurların özbaşınalığı, korrupsiyası qarşısında ərimək yox, daha da bərkiməliyik*

QHT rəhbəri hesab edir ki, bəzi hallarda təkliflər vermək üçün dəstək də lazımdır. Hansısa boşluqları doldurmaq üçün özün də ciddi fəaliyyət göstərməlisən. Görürsən ki, polisdə hansısa stereotiplər var və o, həmin stereotiplərdən asılı adamdır. Ona görə davranışlarında problemlər var, onda maarifləndirməyə keçmək lazımdır.

"Uzun müddətdir, bu işlə məşğul oluram və görürəm ki, bu istiqamətdə dəyişikliklərə nail olmaq mümkündür. İctimai Şuraya üzv olmaq kimisə asmaq-kəsmək deyil, imisə qorxutmaq deyil.

Bu, ədalətli, obyektiv və eyni zamanda ictimai dəstəklə problemləri aradan qaldırmaqdır. Hər halda fiziki güclə olmasa da, ağlın gücü ilə nəyəsə nail olmağa çalışacağam. Səmimi deyim ki, İctimai Şura üzvü olmadan da həmin güc orqanlarının içində əriyib-gedənlər var".

■ **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuraya üzv seçilən QHT rəhbəri Məhluqə Qəhrəmanlı bildirir ki, İctimai Şura olaraq fəaliyyətlərini günün tələblərinə uyğun olaraq həyata keçirirlər. O, davamlı olaraq ƏƏSM Nazirliyinin tabeliyində olan müxtəlif qurumlarla, agentliklərlə görüşlər keçirib, təkliflərlə çıxış etdiklərini, lazımi monitorinqlər aparıldığını qeyd edib.**

"Bu gün İctimai Şura əməkdaşları olaraq əlilliklə bağlı gündəmdə olan məsələlərə həssas yanaşır, həqiqətən də əlilliyi olan insanların əlilliyinin təyin edilməsində yardımçı oluruq. Təəssüf hissi ilə bildirirəm ki, qarşılaşdığımız çoxlu sayda problem var. Bütün bunlarla yanaşı, yalançı əlilliyin təyin edilməsinin qarşısının alınmasında da fəallıq göstəririk". M.Qaramanlı nazirliyin Şura üzvləri ilə çox gözəl sıx əməkdaşlıq yaratdığını qeyd edib. "Biz Əlil Qadınların İctimai Birliyi olaraq əvvəldən də işlərimizi görürdük. İctimai Şura üzvü olaraq üzərimizə ikiqat məsuliyyət və öhdəliklər qoyulub. Bu, işimizi daha dəqiq yerinə yetirmək üçün bizə stimul verir. İnanıram ki, bu sahədə İctimai Şuranın rolu yüksək nəticələr verəcək.

Bu gün ƏƏSMN əhalinin sosial həyatını əhatə edən bir qurum olaraq çox gərgin, ağır iş rejiminə malikdir. İnsan anadan olandan rəhmətə gedənə qədər o qurumla əlaqəli şəraitdə yaşayır, fəaliyyət göstərir. Biz öhdəmizə düşən məsələlər ətrafında monitorinqlər edir, görünən problemləri aidiyyəti orqanlara çatdırır, davamlı olaraq məlumatlar ötürür, problemin həll yollarını tapırıq. Bir faktı deyim; Göyçay rayonunda şəhid Səlimovlar ailəsi var. Şəhid ailəsində qadın məktəbdə süpürgəçi işləyirmiş və xəstəliyi ilə əlaqədar işindən azad ediblər. Qadın yataq xəstəsidir, onun əlil arabası məsələsini qaldırdıq və həll etdik. Belə problemlər Şəkidə, Qusarda və digər rayonlarda da var. Biz bütün gücümüzü insanların problemlərini yerində müəyyən edib məsələni aidiyyəti orqanlar qarşısında qaldırıb, lazım olan köməyi göstərməyə yönəltmişik. Beləcə, bölgələrə çıxırıq, monitorinqlər, davamlı görüşlər keçiririk.

Bu gün sosial gündəm əlillik məsələsində yaranan mövcud problemlərin həllinə yönəlib. Burada da "reket" insanlar olub ki, sağlam insanlara əlillik dərəcələri veriblər. Əlbəttə ki, ölkəmizdə müharibə yeni bitib, vəziyyət ağırdır və bütün müharibə gedən bölgələrdə insanlar psixoloji sarsıntılara məruz qalıblar. Evlərinə şəhid, qazi gələn ailələr ciddi psixoloji gərginlik içində qalırlar. Biz bunların hamısını görürük. Bundan sui-istifadə edən insanlar da var ki, onların qarşısını almağa çalışırıq. Əlillik problemi olan insanlara dəstək oluruq. Məşğulluq sahəsində böyük işlər aparırıq. Məşğulluğa ehtiyacı olan insanları araşdırırıq, işləmə qabiliyyəti olan insanların potensialını araşdırırq. Təlimlərə cəlb edib, kiçik sahibkarlar kimi gələcəkdə ailələrinə dəstək olmaları üçün onlara yardım edirik". Uzun illər əlillərlə işləyən QHT olaraq problemlərə biganə qalmadıqlarını deyən M.Qaramanlı bundan sonra da öz işlərini doğru və düzgün nəzarət əsasında görəcəklərini deyib.

***Tahirə Qafarlı***

*P.S. "Həftə içi" olaraq bir çox İctimai Şura üzvlərinə suallar ünvanladıq. Bir həftə öncədən "möhtərəm" ictimai nəzarətçilərə ünvanlanan sualların cavabını səbirlə gözləsək də, cavab gəlmədi. Bu da onu deməyə əsas verir ki, həmin Şura üzvləri öz məsuliyyətlərini dərk etmir və İctimai Şuraya seçilmənin mahiyyətini anlamır. Çoxları bunu vəzifə bilib, indidən məmurlaşıb. İctimai Şura üzvləri mətbuata sözünü çatdıra bilmirsə, vətəndaşın sözünü necə deyəcək?*

# İdman zallarından necə istifadə olunacaq?

**Səhiyyə Nazirliyi idman zallarından istifadə qaydalarını açıqlayıb. Nazirlikdən hafta.az-a verilən məlumata görə, zala gedən şəxslər koronavirusla bağlı bəzi tələblərə əməl etməlidirlər.**

İdman zalına giriş və çıxış zamanı əllər sabun və su ilə yuyulmalıdır. Alətlərə toxunduqdan sonra əlləri antiseptik məhlulla təmizləmək tələb olunur.

Zaldan istifadə üçün şəxsi əşyalar (dəsmal və s.) götürmək, içəridə ən azı 2 metr sosial məsafə saxlamaq lazımdır. İdman edərkən üzə toxunmaq olmaz. Zalda məşq edən şəxslər üzünün yerə və ya alətə toxunmadığına əmin olmalıdır. Həmçinin paltardəyişmə otağında uzun müddət qalmamaq, xəstəlik (qızdırma, öskürək, nəfəs darlığı, baş ağrısı, halsızlıq, ishal və s.) əlamətləri olanların idman zallarına getməməsi tövsiyə olunur.



## SUAL-CAVAB

***Bakı şəhərində yerləşən və yaşayış sahəsi 54 kvadratmetr olan mənzil üçün nə qədər əmlak vergisi ödənilməlidir?***

- Bildiririk ki, fiziki şəxslərin xüsusi mülkiyyətində olan yaşayış sahəsi üzrə əmlak vergisi həmin yaşayış sahəsinin 30 kvadratmetrdən artıq olan hissəsinin hər kvadrat metrinə Bakı şəhəri üzrə müəyyən olunan 0,4 manat vergi dərəcəsi, habelə Nazirlər Kabineti tərəfindən Bakı şəhərinin zonaları üzrə müəyyən olunan müvafiq əmsal tətbiq etməklə hesablanır. Yaşayış sahəsi dedikdə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq daşınmaz əmlak hesab edilən və vətəndaşların daimi yaşaması üçün yararlı olan (müəyyən edilmiş sanitariya və texniki norma və qaydalara, qanunvericiliyin digər tələblərinə cavab verən ayrıca sahə başa düşülür. Yaşayış sahəsinin ümumi sahəsi vətəndaşların orada yaşaması ilə əlaqədar onların məişət və digər ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulan yardımçı sahələrin (balkon və ya eyvanlar istisna olmaqla) sahəsi daxil olmaqla onun bütün hissələrinin sahəsinin məcmusundan ibarətdir. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi onların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən əmlak sahəsinin hər kvadratmetrinə əsasən hesablanır və hesablanmış əmlak vergisi barədə tədiyyə bildirişləri hər il üçün illik olmaqla həmin ilin avqust ayının 1-dən gec olmayaraq vergi ödəyicilərinə verilməlidir. Hesablanmış vergi məbləğləri Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən ödənilməmiş vergi məbləğinin 0,1 faizi məbləğində faiz tutulur.

Müəyyən edilmiş faiz vergi ödənişlərinə münasibətdə bütün ötmüş müddətə, ancaq bir ildən çox olmamaq şərti ilə tətbiq edilir. Eyni zamanda yerli vergilərin (bələdiyyə vergilərinin) dərəcələri vergi qanunvericiliyində təsbit edilmiş hədlər daxilində müəyyən edilir. Vergi qanunvericiliyinə uyğun olaraq bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcəsini azaltmaq barədə qərar qəbul edə bilərlər. Əlavə olaraq bildiririk ki, binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla Vergi Məcəlləsinin 102.2-ci maddəsində göstərilən şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisinin məbləği 30 manat azaldılır.

---

***Hərbi qulluqçu xidmət etdiyi dövrdə xidməti vəzifələrini icra etməklə bağlı olmayan səbəbdən əlil olarsa ona hərbi qulluqçu kimi pensiya təyin edilə bilərmi?***

- "Əmək pensiyaları haqqında Qanunun 12.2-ci maddəsinə əsasən əlilliyə görə əmək pensiyaları xidmət müddətindən asılı olmayaraq, əlillik hərbi qulluqçuların xidmət etdiyi dövrdə və ya xidmətdən buraxıldıqdan sonra, lakin xidmət dövründə alınmış xəstəlik və yaxud xəsarət (yaralanma, travma, kontuziya) nəticəsində üz verdikdə təyin edilir və həmcinin 11.2.2- ci maddəsinə əsasən hərbi qulluqçular sırasından digər əlillər-əlillik hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə bağlı olmayan bədbəxt hadisə nəticəsində alınmış xəsarət (yaralanma, travma, kontuziya), yaxud cəbhədə olmaqla və ya döyüş əməliyyatları aparılan ölkələrdə beynəlmiləl borcu yerinə yetirməklə bağlı olmayan xəstəlik nəticəsində üz verərsə təyin edilir.

---

***Əgər fiziki şəxs tərəfindən VÖEN geyim əşyalarının satışı üzrə alınıbsa, həmin VÖEN əsasında ərzaq satışı da həyata keçirilə bilərmi?***

- Vətəndaşın vergi uçotuna alınarkən vergi orqanına təqdim etdiyi ərizədəki fəaliyyət növü ilə faktiki fəaliyyət növü fərqli olduqda, fəaliyyət növünün dəyişdirilməsi üçün yeni fəaliyyət növünü müvafiq xanada qeyd etməklə qeydiyyatda olduğu vergi orqanının əhatə dairəsinə aid olan vergi ödəyicilərinə xidmət mərkəzlərinə müvafiq ərizə forması ( "Fiziki şəxsin uçotu haqqında ərizə") təqdim olunmalıdır. Gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) və ya istifadəçi kodu, parol və şifrə olduqda isə İnternet Vergi İdarəsi portalı üzərindən qeyd olunan əməliyyatı elektron qaydada yerinə yetirmək mümkündür.

---

***Youtube şəbəkəsindən əldə olunan gəliri bank hesabından VÖEN açdırmadan almaq mümkündürmü?***

- Bildiririk ki, qeyd olunan fəaliyyət növü sahibkarlıq fəaliyyəti hesab edilir və fiziki şəxs kimi sahibkarlıq fəaliyyətinə başladığınız günədək yaşayış yeri üzrə vergi orqanına müraciət edərək vergi uçotuna alınmalısınız. Eyni zamanda, banklar hüquqi şəxslərə, onların filial və nümayəndəliklərinə, fərdi sahibkarlara yalnız onlar vergi orqanı tərəfindən verilən şəhadətnamə-dublikatını təqdim etdikdən sonra bank hesabları açırlar.

***Sevinc***

Sorğu

# İctimai nəqliyyatda həftəsonu qadağası

**Xeyli müddətdir ki, Azərbaycanda koronavirus pandemiyasına görə həftəsonları ictimai nəqliyyatın fəaliyyətinə qadağa qoyulub. İyun ayından etibarən ölkəmizdə təşkil olunan beynəlxalq səviyyəli idman yarışları ilə əlaqədar bu məhdudiyyət qismən də olsa aradan qaldırılıb. Yarışların davam etdiyi bu günlərdə Bakı Metropoliteni işini bu ay ərzində məhdudiyyətsiz davam etdirəcək. Verilən yeni qərarlar sosial şəbəkələrdə istifadəçilərin geniş müzakirələrinə səbəb olub. "Virus həftəsonları, adi vaxtlarda da var, ancaq idman yarışları olanda yoxdur?" kimi müxtəlif fikirlər səsləndirilir. Bir qisim istifadəçi yeni qərarların qəbulunu zəruri hesab edir. Bəs görəsən, mütəxəssislər və tanınmışlar hansı fikirdədir? Hafta.az olaraq məsələni biz də ictimai müzakirəyə çıxartdıq.**




## Çoxluq bu qərarın ləğvini istəyir

■ **İlk olaraq Milli Məclisin İnsan Haqları Komitəsinin üzvü Fazil Mustafa bildirdi ki, ümumilikdə ölkədə ictimai nəqliyyatın fəaliyyətinə qoyulan qadağa pandemiya ilə əlaqədar idi.** Bu qərarlar bir qədər əsaslandırılmamışdı. Həmçinin deputatın fikrincə, həftəsonu ictimai nəqliyyatın fəaliyyətinə qoyulan məhdudiyyət yaxın vaxtlarda aradan qaldırılacaq:

"İndi hər halda metronun açılması vəziyyəti yüngülləşdirdi. Bunu çoxdan etmək lazım idi. Mən hələ 6 ay əvvəl demişdim ki, metrolar açılsın. Bir qədər gec oldu, vətəndaşlara böyük ziyan vuruldu. Hesab edirəm ki, ictimai nəqliyyatın alternativi olmadığı üçün bir qədər problemlər yaşanır. İndiki vəziyyətdə metronun fəaliyyəti vətəndaş üçün faydalıdır. Ümid edirəm ki, pandemiya ilə bağlı daha əsaslandırılmış qərarlar veriləcək və vətəndaşların sıxıntılarının qarşısı alınacaq. Həftəsonları olan məhdudiyyət isə düşünürəm ki, bundan sonra aradan qaldırılar. Bəzi qadağalar isə hələ davam edəcək".

■ **İqtisadçı ekspert Natiq Cəfərli isə qoyulan qaydaların bir-birinə uymadığını, həftəsonları nəqliyyatın işinə tətbiq edilən məhdudiyyətin tamamilə aradan qaldırılmalı olduğunu vurğuladı:**

"Əslində, bu çox ciddi məsələdir. Əgər doğrudan da söhbət ictimai nəqliyyatda virusun yayılmasının qarşısını almaq üçün atılan addımdan gedirsə, indi eyni vəziyyətdə idman yarışları keçirilən vaxtda, həftəsonu ictimai nəqliyyatın işləməsi onu deməyə əsas verir ki, bu virusla bağlı verilmiş qərar deyil. Həm də artıq şükürlər olsun, ölkəmizdə virusla bağlı vəziyyət xeyli dərəcədə yaxşılaşıb. Vaksinləşmə 18 yaşdan yuxarı əhalinin, demək olar ki, yarısını əhatə edir. Bunları nəzərə alsaq, onda bu məhdudiyyətləri aradan qaldırmağın vaxtı gəlib çatıb. Əgər idman yarışları zamanı bu məhdudiyyətlər götürülə bilirsə, deməli, digər vaxtlarda da götürülə bilər. Hazırda paytaxtda elə iş yerləri var ki, həftəsonları da fəaliyyət göstərir. Əməkdaşlar də məcbur qalıb işə taksi ilə gedirlər. Bu da nəqliyyat xərclərini artırır. Ona görə də fikrimcə, yaxın gələcəkdə bununla bağlı Operativ Qərargahın normal qərarı olmalıdır".

> *Həftəsonu ictimai nəqliyyatın fəaliyyətinə qoyulan məhdudiyyət yaxın vaxtlarda aradan qaldırılacaq*

> *Dünyanın hər yerində pandemiya var, ancaq belə qadağalar yoxdur*

> *Əgər idman yarışları zamanı bu məhdudiyyətlər götürülə bilirsə, deməli, digər vaxtlarda da götürülə bilər*

> *Nə qayda qoyulubsa, düşünürəm ki, ona hamılıqla əməl etməliyik*

■ **Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının rəhbəri Mirvari Qəhrəmanlı isə hazırkı vəziyyəti ən yaxşı şirniyyatların qonaq süfrəsinə qoyulduğu zamanlara bənzətdi:**

"Mənim fikrimcə, həftəsonu ictimai nəqliyyatın işləməməsi gülüncdür. Dünyanın hər yerində pandemiya var, ancaq belə qadağalar yoxdur. Bu məhdudiyyət əksinə, xəstəliyin yayılmasını daha da sürətləndirir. Bu siyasətlə ona görə razılaşmıram ki, hər kəsə eyni münasibət göstərilmir. Bu, ən yaxşı konfet və şokoladın qonaqlara saxlanılması kimi bir şeydir. Xarici qonaqlar gəlib deyə, bu gün nəqliyyat fasiləsiz işləyir, oyunlar bitəndən sonra yenə məhdudiyyətlərin tətbiq edilməsi heç də doğru addım deyil".

■ **Müzakirəni bir qədər də genişləndirib, bu dəfə suallarımızı incəsənət adamına yönəltdik. Həmsöhbətimiz muğam ifaçısı, Əməkdar artist Nuriyyə Hüseynova oldu. İfaçı həftəsonları ictimai nəqliyyatın işindəki məhdudiyyət mövzusuna münasibət bildirərkən, "Dövlətimiz belə uyğun görürsə, bizə də ona əməl etmək qalır", - deyib sözə başladı. İndi onu narahat edən əsas məqam başqadır:**

"Dövlətin qanunları qarşısında boynumuz qıldan incədir. Nə qayda qoyulubsa, düşünürəm ki, ona hamılıqla əməl etməliyik. Bu xəstəlik çox ciddi fəsadlara səbəb ola bilir. Hər bir halda indi virusa yoluxma sayı xeyli azalıb. Buna görə də fikrimcə, artıq pandemiyanın sonuna yaxınlaşırıq. Vaksinasiyanın aparılması COVID-19-un səngiməsinə və yox olmasına gətirib çıxarır.

Elə buna görə də normallaşma müddəti başlayıb, qoyulan qadağalar yavaş-yavaş ləğv olunur. Yəqin ki, həftəsonları ictimai nəqliyyatın fəaliyyətinə qoyulmuş məhdudiyyətlər də tezliklə aradan qaldırılar. İndi məni daha çox ölkəmizdə tətbiq olunan vaksinin bir sıra Avropa ölkələrində tanınmaması məsələsi narahat edir. Xüsusən də biz sənət adamları üçün bu, çox ciddi məsələdir. Pandemiya başladıqdan xaricə səfər etməmişəm. Bu məsələ məni hazırda çox narahat edir".

Göründüyü kimi, cəmiyyətin hər kəsimi artıq ictimai nəqliyyatla bağlı qadağanın tam aradan qaldırılmasını istəyir. Lakin son söz yenə də dövlətin müvafiq qurumlarınındır. Vətəndaşlar olaraq qaydalara əməl etmək isə hamımızın borcudur.

*✍ Banu*


# "Azercell" AVRO-2020-də yüksəkkeyfiyyətli mobil şəbəkə təqdim edir!

Ⓡ

**"Azercell Telekom" MMC Bakıda keçirilən AVRO-2020 oyunlarında abunəçilərini müasir və yüksəkkeyfiyyətli rabitə xidmətləri ilə təmin edir. Bu il futbol üzrə Avropa çempionatı çərçivəsində 4 oyunun paytaxtımızda təşkil edildiyini diqqət mərkəzində saxlayan lider mobil operator Bakı Olimpiya stadionunda, eləcə də ətraf ərazilərdə şəbəkənin gücləndirilməsi istiqamətində müvafiq işlər həyata keçirib.**




Futbol azarkeşlərinə ən yaxşı müştəri təcrübəsi yaşatmağı hədəfləyən Azercell ərazidə şəbəkənin tutumunu dəfələrlə artırıb. Qeyd edək ki, stadion daxilində ümumi mobil şəbəkə infrastrukturu məhz Azercell tərəfindən quraşdırılıb. Məkan innovativ şəbəkə həlləri ilə təchiz edilib. Həmçinin hazırda ərazidə Azercell-in səyyar mobil Radio Baza Stansiyası da fəaliyyət göstərir. Stadionda yüksəksürətli mobil internet xidmətləri təqdim edən Azercell tamaşaçılara oyunlardan təəssüratlarını dərhal paylaşmaq, sosial şəbəkələrdə canlı yayım etmək imkanı yaradıb. AVRO-2020 çempionatına texniki hazırlıq çərçivəsində aparılan işlər qonaqların yerləşdiyi otelləri də əhatə edib. Belə ki, mehmanxanalara xidmət verən stansiyalarda şəbəkənin keyfiyyətinin yoxlanılması istiqamətində aktiv işlər aparılır. Əlavə olaraq, Azercell paytaxtımızın qonaqlarına yüksəkkeyfiyyətli rominq xidmətləri təqdim etmək üçün tərəfdaş operatorlarla daima əlaqədədir və mütamadi olaraq müvafiq test işləri həyata keçirir.

Xatırladaq ki, işğaldan azad edilmiş ərazilərdə ilk mobil infrastrukturu quraşdıran "Azercell Telekom" MMC-nin ölkə ərazisi üzrə əhatə dairəsi 94%, ölkə əhalisi üzrə isə 98,7% təşkil edir. Təkcə son 2 il ərzində lider mobil operator LTE şəbəkəsinin əhali üzrə əhatə dairəsini 35,9%-dən 85,5%-ə, coğrafi dairəsini isə 22,5%-dən 73,3%-ə qədər genişləndirib. Hazırda bu texnologiya ilə işləyən Radio Baza Stansiyaların ümumi sayı isə 2775-ə çatdırılıb.


## HƏFTƏ REYTİNQ

### Həftənin SAZİŞİ



İyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşündən sonra "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalanıb. Şuşa Bəyannaməsini Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar.

### Həftənin HƏDİYYƏSİ



Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı musiqili kompozisiya təqdim edilib. Tədbir zamanı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana ən qədim at cinslərindən olan "Zəfər" adlı Qarabağ atı və "Xarıbülbül" kompozisiyası hədiyyə edilib. "Xarıbülbül" kompozisiyasında Qarabağın rəmzi sayılan iki xarıbülbül gülü birləşərək Azərbaycan ilə Türkiyə arasındakı əbədi dostluq və qardaşlıq münasibətlərini təcəssüm etdirir.

### Həftənin GÖRÜŞÜ



Rusiya və ABŞ prezidentləri Vladimir Putinlə Co Bayden aralarında Cenevrəyə gözlənilən görüş baş tutdu. Görüşün əvvəlində Putin Baydenə bu təşəbbüs üçün təşəkkür edib. Danışıqların birinci hissəsi prezidentlər və Rusiya XİN başçısı Sergey Lavrov və ABŞ Dövlət Departamentinin rəhbəri Entonu Blinkenin iştirakı ilə baş tutub. Görüş daha sonra geniş tərkibdə, Rusiya və ABŞ prezidentlərinin köməkçiləri, səfirlər və hərbçilərin iştirakı ilə davam etdirilib.

### Həftənin İDMANÇISI



Olimpiya Oyunlarının gümüş mükafatçısı Elmar Qasımovun İnstaqram hesabında paylaşdığı video tənqid edilib. Görüntülərdə məşhur idmançı eyvandan dollar əsginazlarını küçəyə səpir. Onun bu davranışı birmənalı qarşılanmayıb. İctimai şəxs kimi idmançının bu hərəkətinin yolverilməz olduğu bildirilib. Azərbaycan Cüdo Federasiyasının mətbuatı xidməti məsələ ilə bağlı "Qafqazinfo"ya açıqlamasında Elmar Qasımova belə hərəkətlərinə görə dəfələrlə xəbərdarlıq edildiyini bildirib.

### Həftənin ETİRAZI



Portuqaliya millisinin kapitanı Kriştiano Ronaldonun AVRO-2020-də Macarıstanla matçdan öncə "Coca-Cola" şüşələrini masadan götürməsi böyük səs-küy yaradıb. Bu, bir çox məşhur tərəfindən trend olaraq qəbul edilib. Belə ki, Kriştianonun ardınca İtaliya millisinin futbolçusu Manuel Lokatelli də eyni addımı atıb. O da "Coca-Cola" şüşələrini masadan götürməklə Ronaldoya dəstək olub. Daha sonra Niderland millisinin sabiq ulduzu Rayan Babel də eyni addımı atıb. Fransa yığmasının ulduzu Pol Poqba isə müsəlman olduğu üçün qarşısına qoyulan pivə şüşəsini masadan qaldırıb.

### Həftənin QONAĞI



Türkiyənin məşhur aparıcısı, TV 8-in rəhbəri Acun Ilıcalı ötən həftə Azərbaycana gəlib. O, "AVRO-2020"nin A qrupunda yer alan Türkiyə-Uels oyununu izləmək üçün paytaxtımızda olub. Acunun Bakı Olimpiya Stadionunda lentə alınan fotoları sosial şəbəkələrdə paylaşılıb. "Beşiktaş"ın baş məşqçisi Sergen Yalçın və Türkiyə yığmasının sabiq üzvü Emre Belözoğlu da qardaş ölkə yığmasının oyununu paytaxtımızda izləyib. Qeyd edək ki, ilk matçda İtaliya millisinə uduzan Şenol Günəşin komandası bu oyunda da məğlubiyyətlə üzləşib. Qarşılaşma Uelsin 2:0 hesablı qələbəsi ilə başa çatıb.

### Həftənin NİKAHI



Dünyaca məşhur aktyor, Hollivud ulduzu Jan-Klod Van Dammın oğlu azərbaycanlı xanımla ailə qurub. Atası kimi aktyor olan Kristofer Van Barenberq (Kris Van Damm) pianoçu Suada Hacızadə ilə nikah bağlayıb. Nikah bir neçə gün bundan əvvəl baş tutub. Suada instaqram hesabının info bölməsində Krislə ailə qurduğunu qeyd edib. Eyni addımı məşhur aktyorun oğlu da atıb. S. Hacızadənin yaxın dostları da məlumatı təsdiqləyib. Qeyd edək ki, Suada Hacızadə Prezident mükafatçısıdır, 7 dəfə Beynəlxalq Musiqi Müsabiqəsinin laureatı olub.

*✍ Azad Əliyev*

## GÜNÜN FOTOSU



Krımda sel fəlakəti...

## İctimai Şura üzvləri missiyalarını necə yerinə yetirəcəklər?

**Məhluqə Qəhrəmanlı,**
ƏƏSMN-in yanında İctimai Şuraya üzv seçilən QHT rəhbəri

Biz məmurların özbaşınalığı, korrupsiyası qarşısında əriməli yox, daha da bərkiməliyik.

▸▸ Səh. 7

## STATİSTİKA



■ Ən böyük sərçənin çəkisi 30 qram, ən kiçiyinin isə 10 qramdır.

■ Yer üzündə milyarddan çox sərçə var.

■ Sərçələr orta hesabla 10 il yaşamalı olsalar da, onların çox hissəsi heç bir qışdan sağ çıxa bilmir.

■ Uçuş zamanı sərçənin ürəyi saatda 1000 dəfə vurur.



▸▸ Səh. 4

## Təhsil Tələbə Krediti Fondu hansı imkanları yaradacaq?